RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

100

№ 132 (9299) 23 İYUN 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Çindən Zəngilana, Naxçıvandan Avropaya

## İlham Əliyevin qlobal təşəbbüsləri ilə Azərbaycan Avrasiyada yeni nəqliyyat-tranzit habına çevrilməkdədir

**Bu gün Avropa ölkələrinin əsas enerji təminatçısı və ən etibarlı tərəfdaşı kimi qəbul olunan Azərbaycan İlham Əliyevin qlobal təşəbbüsləri ilə Avropa ilə Asiya arasında həm də nəqliyyat-ticarət körpüləri yaradır.**

"Şərq-Qərb","Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal aktorlarından biri kimi Azərbaycan yüklərin Asiyadan Avropanın müxtəlif istiqamətlərinə təhlükəsiz və ən əlverişli imkanlar daxilində daşınması üçün rahat tranzit marşrutu yaradıb. Xəzər dənizi, Beynəlxalq Dəniz Ticarəti Limanı, Bakı-Tbilisi-Qars "dəmir ipək yolu", Ələt Azad İqtisadi Zonasının yaratdığı imkanlar bir daha təsdiq edir ki, Azərbaycan Qafqazda ən əlverişli nəqliyyat-tranzit habıdır.

İkinci Qarabağ müharibəsindəki Şanlı Zəfərin yaratdığı reallıq fonunda isə Azərbaycan Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) daha səmərəli və etibarlı marşrut olması üçün çox mütərəqqi təkliflər irəli sürür. Bunlardan biri də Zəngəzur dəhlizinin açılmasıdır.

### Qədim Böyük İpək yolunun yenidən canlanmasını şərtləndirən dəhliz

Hazırda Orta dəhliz uzaq Çindən yüklərin Avropaya və Yaxın Şərqə daşınması üçün ən təhlükəsiz marşrutlardan hesab edilir. Bu marşrut Şimal dəhlizindən orta hesabla 2500 kilometr qısadır və dəmir yolu ilə səyahət müddətini yeddi-səkkiz günə azaltmaq potensialına malikdir. O həmçinin keçdiyi ölkələr arasında ticarətin inkişafına kömək etmək iqtidarındadır.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi tanınan Orta dəhliz üzrə hərəkət edən blok qatarı yükləri orta hesabla 20-25 günə Çindən Avropaya çatdırır ki, bu da nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biri sayılır.

Orta dəhliz vasitəsilə yüklər Çin, Qazaxıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və daha sonra Avropaya daşınacaq. Bu dəhlizin əhəmiyyətini artıran digər məsələ isə Rusiya-Ukrayna müharibəsidir.

5

# Qazaxıstanla əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensial var



## Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstanın Baş nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Qazaxıstanın Baş naziri Alixan Smailovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanla Qazaxıstan arasında münasibətlərin strateji xarakter daşıdığını deyən dövlətimizin başçısı əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, ikitərəfli münasibətlərin gündəliyinin geniş olduğunu bildirdi.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ötən il Azərbaycana, özünün isə bu il Qazaxıstana səfəri zamanı əldə edilmiş razılıqların uğurla həyata keçirildiyini və onların icrasının daim diqqətdə saxlanıldığını bildirən Prezident İlham Əliyev bunu əməkdaşlığımızın yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin regional əməkdaşlıq, o cümlədən Xəzər hövzəsində və daha geniş məkanda əməkdaşlıq üçün böyük önəm daşıdığını qeyd etdi. Azərbaycan Prezidenti bu əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu dedi, bütün bunların ticarət dövriyyəsinin həcminin artırılması, əlavə biznes imkanlarının yaradılması, energetika, nəqliyyat və digər sahələrdə böyükmiqyaslı layihələrin həyata keçirilməsi işinə xidmət etdiyini vurğuladı.

Prezident İlham Əliyev Alixan Smailovun səfərinin ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi.

Xoş sözlərə görə minnətdarlıq edən qonaq Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

2

# Laçın, Xocavənd, Şuşa və Xocalıdakı mövqelərimiz atəşə tutulub

İyunun 22-si saat 02:15-də Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Brun yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Laçın rayonunun Əhmədli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin (MN) Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, bundan başqa, iyunun 21-i saat 23:05-dən iyunun 22-si saat 08:15-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Azərbaycan Ordusunun Xocavənd, Şuşa və Xocalı rayonları istiqamətlərində yerləşən mövqeləri də atıcı silahlardan fasilələrlə atəşə tutublar.

Bölmələrimiz tərəfindən qeyd olunan bütün istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Həmçinin qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri kənd təsərrüfatı işləri adı altında ordumuzun Ağdam və Xocalı rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Azərbaycan Ordusunun bölmələrinin gördükləri təxirəsalınmaz tədbirlər nəticəsində aparılan mühəndis işləri dərhal dayandırılıb.

◆ 23 iyun dövlət qulluqçularının peşə bayramıdır

# Dəyərlərə əsaslanan dövlət qulluğu sistemi və Azərbaycanın innovativ inkişafda dünya liderliyi

**Azərbaycan uğurla inkişaf edir və bu inkişafın təməli 100 illik yubileyi dünya səviyyəsində qeyd edilən Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla təkmilləşdirilərək yeni səviyyəyə qaldırılmışdır.**



Cənab İlham Əliyev 2018-ci il aprelin 11-də növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar keçirilən andiçmə mərasimindəki çıxışında demişdir: "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".

Azərbaycanın son illər qazandığı çoxsaylı nailiyyətlərin ən parlaq nümunəsi və təsdiqi Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız böyük Zəfərdir. Bu Zəfər sayəsində BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin erməni işğalından azad edilməsinə dair 4 qətnaməsi icra edilmiş və ölkəmizin ərazi bütövlüyü bərpa olunmuşdur.

6

# Aşkarlanan kütləvi məzarlıqlar qan yaddaşımızdır

**Son iki əsrlik tarixin müxtəlif zamanlarında ermənilər milli düşmənçilik zəminində Azərbaycan xalqına qarşı qətliamlar, soyqırımları törədiblər, eləcə də Birinci Qarabağ müharibəsində bu mənfur əməllərini davam etdiriblər.**



Həmin dövrdə Hayastan xalqımıza qarşı saysız-hesabsız müharibə cinayətləri, Balıqaya, Ağdaban, Başlıbel kimi faciələr yaşadıb, 1992-ci il fevralın 26-da Xocalı sakinlərinə qarşı soyqırımı həyata keçirib. Bu qırğın nəticəsində 613 günahsız insan xüsusi amansızlıqla qətlə yetirilib. 8 ailə tamamilə məhv edilib. Həmin gün 1275 Xocalı sakini girov götürülüb və erməni cəlladları tərəfindən amansız işgəncələrə məruz qalıblar.

Birinci Qarabağ müharibəsi dövründə 3890 azərbaycanlı, o cümlədən təqribən 200 uşaq itkin düşüb. Ötən illər ərzində Ermənistan tərəfi bu vətəndaşlarımızın taleyi ilə bağlı heç bir məlumat verməyib.

8

# İLK "QIZIL"IMIZ



Azərbaycan Polşada keçirilən III Avropa Oyunlarında ilk medalı rəsmiləşdirib. 67 kq-da çıxış edən karateçi Tural Ağalarzadə B qrupundakı ikinci görüşündə də qələbə qazanaraq yarımfinala yüksəlib və ən azı bürünc medalı təmin edib. O, əvvəlcə macarıstanlı Martial Tadissiyə 4:0, ardınca isə isveçrəli Toni Pisinoya 5:3 hesabı ilə qalib gəlib.

12




9

# Qazaxıstanla əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensial var

## Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstanın Baş nazirini qəbul edib

*Əvvəli 1-ci səh.*



Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kasım-Jomart Tokayevə çatdırmağı xahiş etdi.

Alixan Smailov qarşıdan gələn Qurban bayramı münasibətilə dövlətimizin başçısına və dost Azərbaycan xalqına təbriklərini çatdırdı.

Bu il Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunduğunu vurğulayan qonaq Ulu Öndərin Qazaxıstana həmişə səmimi dostluq münasibətləri bəslədiyini dedi, bu il Astanada Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakı ilə Heydər Əliyev küçəsinin açılışını ölkələrimizin və xalqlarımızın birliyinin təcəssümünü bir daha nümayiş etdirdiyini bildirdi.

Dövlətimizin başçısı Ulu Öndər Heydər Əliyevin xatirəsinə olan hörmətə görə təşəkkürünü ifadə etdi, bunun Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirildiyini dedi.

Azərbaycanla Qazaxıstan arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını bildirən və bütün sahələrdə əməkdaşlığımızın uğurla inkişafından məmnunluğunu ifadə edən Alixan Smailov qarşılıqlı fəaliyyətimizin strateji tərəfdaşlığa əsaslanan münasibətlərimizin göstəricisi olduğunu vurğuladı. Qazaxıstanın Baş naziri əməkdaşlığın müxtəlif sahələrdə möhkəmlənməsi işinə Azərbaycan Prezidentinin verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Ölkəmizin Qazaxıstan üçün Cənubi Qafqazda ən mühüm iqtisadi-ticarət tərəfdaşı olduğunu söyləyən qonaq ötən ilin nəticələrinə görə, qarşılıqlı ticarətin həcminin 460 milyon dolları keçərək 40 faiz artdığını, bu il də bu dinamikanın davam etdirildiyini məmnunluqla bildirdi və potensialın daha da artırılması üçün imkanların olduğunu vurğuladı.

Görüşdə Qazaxıstan tərəfindən Füzuli şəhərində uşaqlar üçün Yaradıcılığın İnkişafı Mərkəzinin inşası yüksək qiymətləndirildi, hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu, ölkələrimiz arasında neft, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, gəmiqayırma, humanitar və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Son dövrlərdə Xəzər dənizindən Orta dəhliz vasitəsilə Azərbaycan və Qazaxıstan, həmçinin üçüncü tərəflərin bu marşrut istiqamətində yüklərinin həcminin çoxalması məmnunluqla qeyd edildi, bu istiqamətdə ölkələrimizin birgə səylərinin artırılmasının vacibliyi vurğulandı.

Söhbət zamanı dost ölkə Qazaxıstan şirkətlərinin də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində müxtəlif layihələrdə iştirakı perspektivləri müzakirə olundu.

# "Qara Dəniz Ticarət və İnkişaf Bankının kapitalının artımı ilə bağlı paylara abunəlik üçün Öhdəlik Məktubu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2022-ci il 22 aprel tarixində imzalanmış "Qara Dəniz Ticarət və İnkişaf Bankının kapitalının artımı ilə bağlı paylara abunəlik üçün Öhdəlik Məktubu" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2023-cü il*

# "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1942 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dəyişikliklər edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il üçün büdcəsinin gəlirlərini və xərclərini dəqiqləşdirmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1942 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1452) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə "8 990 947,2" və "11 392 336,5" rəqəmləri müvafiq olaraq "16 337 500,0" və "11 850 036,5" rəqəmləri ilə əvəz edilsin;

1.2. 2-ci hissə üzrə:

1.2.1. 2.1-ci bənddə "Gəlirlərin məbləği (min manat)" sütununda "6 571 387,3" rəqəmləri "11 765 793,3" rəqəmləri ilə əvəz edilsin;

1.2.2. 2.2-ci bənddə "Gəlirlərin məbləği (min manat)" sütununda "4 307,8" rəqəmləri "3 600,6" rəqəmləri ilə əvəz edilsin;

1.2.3. 2.3-cü bənddə "Gəlirlərin məbləği (min manat)" sütununda "23 590,0" rəqəmləri "15 323,3" rəqəmləri ilə əvəz edilsin;

1.2.4. 2.4-cü bənddə "Gəlirlərin məbləği (min manat)" sütununda "1 590 905,4" rəqəmləri "3 752 026,1" rəqəmləri ilə əvəz edilsin;

1.2.5. "Gəlirlərin məbləği (min manat)" sütununun "Cəmi" sətrində "8 990 947,2" rəqəmləri "16 337 500,0" rəqəmləri ilə əvəz edilsin;

1.3. 3-cü hissə üzrə:

1.3.1. 3.1-ci bəndin "Xərclərin məbləği (min manat)" sütununda "11 280 000,0" rəqəmləri "11 737 700,0" rəqəmləri ilə əvəz edilsin;

1.3.2. "Xərclərin məbləği (min manat)" sütununun "Cəmi" sətrində "11 392 336,5" rəqəmləri "11 850 036,5" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Neft Fondu bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2023-cü il*

# Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsinin icrası haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə"yə və 2001-ci il 12 sentyabr tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları"na müvafiq olaraq Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsinin icrası ilə bağlı hazırlanmış hesabata dair Dövlət Neft Fondunun Müşahidə Şurasının və Azərbaycan Respublikası Hesablama Palatasının rəylərini və Dövlət Neft Fondunun maliyyə fəaliyyətinin beynəlxalq auditor təşkilatı tərəfindən keçirilmiş auditinin nəticələrini nəzərə alaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsinin icrası, gəlirlər 16 866 540,3 min manat, xərclər 7 988 335,2 min manat və ya Fondun 2022-ci il büdcəsində nəzərdə tutulan nisbətən gəlirlər üzrə 106,8 faiz, xərclər üzrə 68,9 faiz səviyyəsində olmaqla, aşağıdakı kimi təsdiq edilsin:

| Sıra №-si | Göstəricilər | Məbləğ (min manatla) |
|---|---|---|
| | **Gəlirlər, cəmi:** | **16 866 540,3** |
| | o cümlədən: | |
| 1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəqli üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 19 698 890,7 |
| 2. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar müqavilə sahəsindən istifadə üçün sərmayəçilərin akrhesabı ödənişləri | 5 578,3 |
| 3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlir | 4212,8 |
| 4. | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlir (zərər) | (3 613 844,6) |
| 5. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar | 768 703,1 |
| | **Xərclər, cəmi:** | **7 988 335,2** |
| | o cümlədən: | |
| 1. | Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinə transfert | 7 923 000,0 |
| 2. | Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 15 236,3 |
| 3. | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 22 203,3 |
| 4. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 27 895,6 |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2023-cü il*

# Dövlət qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Abasov Azim Heydər oğlu
Ağayev İsa Məhəmməd oğlu
Babayev Elxan İbrahim oğlu
Bağırov Həsən Sədrəddin oğlu
Cavadov Şahverən Böyükağa oğlu
Eldarova Rəna Sabirovna
Əhmədov Nuru Hüseynqulu oğlu
Əhmədov Sahib İbrahim oğlu
Əmrahov Arif Həbulla oğlu
Əsədov Əsəd Əlastan oğlu
Əsədova Sədaqət Şamil qızı
Əzizov Əlizamin Qoca oğlu
Həsənova Rahilə Əmirəhməd qızı
Hüseynov Şahin Şahalı oğlu
İbişov Vidadi Behbud oğlu
İsayev Ramiz Mirzağa oğlu
İslamov İsmayıl Nadir oğlu
Qorçiyev Rafiq Alış oğlu
Quluzadə Rasimə Xasay qızı
Qurbanov Turab Dilsuz oğlu
Maxsudov Asəf Sadulla oğlu
Məmmədov İlkin Əfqan oğlu
Mönsümov Nizami İsmayıl oğlu
Namazov Ramid Zakir oğlu
Niftəliyev Həsən Kərim oğlu
Osmanov Ramil Məhəmməd oğlu
Rüstəmova Nəzakət Carullah qızı
Sultanov Sabir İsmayıl oğlu
Taptıqov Rövşən Ağagül oğlu
Tutayuk Fərhad Xaspolad oğlu
Ukleina Yekaterina Vasilyevna
Vəliyev İkram Sabir oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abbasov Emil İlqar oğlu
Abbasov Zaur Firidun oğlu
Abdullayev Şaban Ənvər oğlu
Abdullazadə Hüseyn Abdulla oğlu
Adıgözəlov Elçin Məmmədhəsən oğlu
Ağayev Ayaz Yengibar oğlu
Ağayev Aydın Tapdıq oğlu
Ağayev Azad Qabil oğlu
Ağayev Qafar Akif oğlu
Ağayev Pərviz İsmət oğlu
Ağayeva Leyli Fərid qızı
Ağayeva Samirə Həmidulla qızı
Alıyev Nazim Əyyub oğlu
Alıyeva Könül İsmət qızı
Allahverdiyev Hamlet Naşir oğlu
Aslanov İlkin Cəfər oğlu
Atayeva Aynur Əliabbas qızı
Babayev Mirbaba Sultan oğlu
Babayeva Arzu Elxan qızı
Babayeva Mehriban Eldar qızı
Bağıyeva Mətanət Nəbi qızı
Baxşəliyev Akif Hidayət oğlu
Balayev Sərdar İsmixan oğlu
Balayeva Çinarə İsa qızı
Bayramov Azər Arif oğlu
Bayramov Natiq Salman oğlu
Bayramov Orxan Fərhad oğlu
Bayramov Ucal İbrahim oğlu
Bilalova Sevinc Bahadur qızı
Cahangirov Xasay Xasay oğlu
Cavadov Amil Rafiq oğlu
Cavadova Məhluqə Əbil qızı
Cavadzadə Sevinc İsa qızı
Cəbrayılov Elşən Yaqub oğlu
Cəbrayılov Ramiz Məhərrəm oğlu
Cəfərov Fərid Hadı oğlu
Cəfərov İsmayıl Ramiz oğlu
Çələbiyeva Elnarə Niyazi qızı
Dadaşov Mahir Tofiq oğlu
Dilbazova Fənarə Bahadur qızı
Eyvazova İlahə Abbas qızı
Eyvazzadə Nicat İmran oğlu
Əhədov İlqar Zakir oğlu
Əhədov Zamiq Abdulla oğlu
Əhmədov Ağa-Əli Əliösət oğlu
Əhmədov Rəşad Şirin oğlu
Əhmədova Güllü Nizami qızı
Əhmədova Lalə Kərim qızı
Əli Nərmin Asif qızı
Əliyev Aqibət Qiyasalı oğlu
Əliyev Anar Şakir oğlu
Əliyev Arzu Əhməd oğlu
Əliyev Elşad Ərşad oğlu
Əliyev Etibar Salman oğlu
Əliyev Əkbər Zamiq oğlu
Əliyev Əlixan Fərman oğlu
Əliyev Kənan Arif oğlu
Əliyev Rəşad Zəbərxan oğlu
Əliyev Rövşən Roman oğlu
Əliyev Vasif Vaqif oğlu
Əliyeva Məlahət Rasim qızı
Əmənov Tofiq Ərəstun oğlu
Əminov Dəyanət Abdulməcid oğlu
Əmirmətov Emil Balaqadaş oğlu
Əsədov Ramil Alməmməd oğlu
Əsgərov Məmməd Xubali oğlu
Fərəcova Səbinə Çingiz qızı
Güləhmədov Mübariz Güləhməd oğlu
Hacıyev Əyyub Vaqif oğlu
Hacıyeva Gülnarə Rauf qızı
Heraçiyev Mohuma Əhməd oğlu
Hənifəzadə İbrahim Məhərrəm oğlu
Həsənov Aftandil Afət oğlu
Həsənov Azər Əliağa oğlu
Həsənov Ceyhun Rafiq oğlu
Həsənov Həsən Abdulla oğlu
Həsənov Mizam Sərdər oğlu
Həsənova Lalə Şahvar qızı
Həsənova Məlahət Mahmud qızı
Həşimov Fail Akif oğlu
Hümbətov Əhməd Ramazan oğlu
Hümbətov Fuad Dursun oğlu
Hüseynov Ağahüseyn Sabir oğlu
Hüseynov Azər Ədalət oğlu
Hüseynov Cavid Həmid oğlu
Hüseynov Ceyhun Həsən oğlu
Hüseynov Rəşad Qadir oğlu
Hüseynov Sərdar Tofiq oğlu
Hüseynova Şəlalə Elxan qızı
Xankişiyev Xanbaba Nizami oğlu
Xəlilova Mehriban Ağahüseyn qızı
İbrahimov Əhliman Tofiq oğlu
İsayev Rövşən Dadaş oğlu
İsgəndərov İrfan Xalid oğlu
İsmayılov Vüqar Xeyrulla oğlu
İsmayıl-zadə Xatirə Qulam qızı
Kazımov Tahir Seyidağa oğlu
Kərimli Azər Arif oğlu
Qafarova Elmira Sabir qızı
Qaralov Ruslan Ramiz oğlu
Qasımov Miryusif Abdulla oğlu
Qasımova Tahirə Adil qızı
Qədimquliyev Ramil Eyyub oğlu
Qədimov Orxan Elxan oğlu
Quliyev Azad Həsən oğlu
Quliyev Emil Zahid oğlu
Quliyev Fərid Eldar oğlu
Quliyeva Sevil Fikrət qızı
Mahmudov Eldar Gülağa oğlu
Mahmudov Ramiz Şamil oğlu
Manafov Sadıx Söynalı oğlu
Manafova Ülkər İlqar qızı
Mehbalıyev Emin Cabir oğlu
Mehdiyev Anar Gəncixan oğlu
Mehdiyev Faiq Fərman oğlu
Məcidli İlqar Tofiq oğlu
Məlikov Rüstəm Muxtar oğlu
Məmmədəliyeva Bətulə Ədhəm qızı
Məmmədli Nazəni Hüseyn qızı
Məmmədli Nicat Yunis oğlu
Məmmədov Adil Aydın oğlu
Məmmədov Akif Yaqub oğlu
Məmmədov Ceyhun Abasət oğlu
Məmmədov Elmar Eldar oğlu
Məmmədov Elnur Eldar oğlu
Məmmədov Fərid Rafiq oğlu
Məmmədov Kənan Kamil oğlu
Məmmədov Mehman Nəbi oğlu
Məmmədov Nəsimi Misgər oğlu
Məmmədov Ramal Yahya oğlu
Məmmədov Ramin Nemət oğlu
Məmmədov Sabit Rasim oğlu
Məmmədov Şahin Məmmədağa oğlu
Məmmədov Vəli Məmməd oğlu
Mirbağırova Tahirə Ramazan qızı
Mirzəyeva Gültəkin İnqlab qızı
Mirzəyeva Nərmin Rüfət qızı
Mirzəzadə Pərvanə Yaşar qızı
Mövsümova Ülviyyə Zakir qızı
Muradov Vüqar Sultan oğlu
Musayev Azad Əlibaba oğlu
Musayev Ceyhun Surxay oğlu
Mustafayev Pərviz Yusif oğlu
Nağıyev Natiq Fəhrad oğlu
Nəcəfov Samir Vəliyəddin oğlu
Nəcəfova Zərifə Ağa Rza qızı
Nəsibov Həmid Seyfəddin oğlu
Nuriyev Çingiz Faiq oğlu
Orucov Anar Bayram oğlu
Ömərova Nüşabə Hacıağa qızı
Ramazanov Zaur Nikolayeviç
Rəhimova Nazilə Əvəz qızı
Rüstəmov Abbasəli Məhəmməd oğlu
Rüstəmova Gülnarə Sabir qızı
Rzayev Bayram Ağarza oğlu
Rzayev Xalid Məhərrəm oğlu
Rzayeva Aysel İbadət qızı
Salamzadə Lalə Həsrət Qulu qızı
Salayev Natiq Səxavət oğlu
Salmanov Hilal Şirinbala oğlu
Salmanov Sadiq Həsən oğlu
Salmanova Nəzakət Ənvər qızı
Seyidli Bəhruz Dadaş oğlu
Səfərov Elməddin Əkbər oğlu
Səfərov Fəqan Yaşar oğlu
Səfərova Sevinc Mobil qızı
Səmədov Rəvan Tohid oğlu
Süleymanov İlqar Xalid oğlu
Süleymanova Sevinc Məhəmməd qızı
Şamilov Həsən Nazim oğlu
Şıxməmmədov Vüqar Fevral oğlu
Tağı-zadə Gülarə Tağı qızı
Tapdıqlı Yusif Qabil oğlu
Verdiyev Şahmar Niyazi oğlu
Vəliyev Adil Seyfəddin oğlu
Vəliyev Anar Afiq oğlu
Vəliyev Rəşid Valeh oğlu
Yəhyayeva Solmaz Oktyabr qızı
Yusifov Rövşən Əlfrat oğlu
Yusifov Vidadi Vaqif oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2023-cü il*

# Baş nazir Əli Əsədov qazaxıstanlı həmkarı Alixan Smailov ilə görüşüb

## Azərbaycan ilə Qazaxıstan arasında bir sıra sənədlər imzalanıb

**İyunun 22-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Qazaxıstan Respublikasının Baş naziri Alixan Smailov ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hökumət başçıları əvvəlcə təkbətək görüş keçiriblər. Görüşdə ikitərəfli gündəliyin aktual məsələlərinə toxunulub.

Sonra Baş nazirlər Əli Əsədov və Alixan Smailov nümayəndə heyətlərinin iştirakı ilə görüşü davam etdiriblər.

Görüşdə Alixan Smailovun Qazaxıstanın Baş naziri vəzifəsinə yenidən təyin olunmasından sonra ilk xarici səfərini məhz Azərbaycana etməsindən məmnunluq ifadə olunub.

Qeyd edilib ki, ötən il Azərbaycan və Qazaxıstan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlamətdar olub. Bu illər ərzində iki ölkə bütün sahələrdə konstruktiv dialoq və qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına nail olub.

Vurğulanıb ki, prezidentlər İlham Əliyevin və Kasım-Jomart Tokayevin birgə səyləri ilə Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlığı bu gün bütün istiqamətlər üzrə inkişaf edir və genişmiqyaslı xarakter daşıyır.

Tərəflər ali səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin iki ölkənin səmərəli əlaqələrinə böyük töhfə verdiyini qeyd ediblər. Azərbaycan Prezidentinin cari ilin aprelində Qazaxıstana uğurlu rəsmi səfəri bunun növbəti təsdiqi kimi qiymətləndirilib.

Səfər çərçivəsində bir sıra mühüm sənədlərin imzalanmasının əhəmiyyəti vurğulandı, bunlardan ən mühümünün "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Protokol"un olduğu qeyd edilib.

Baş nazir Əli Əsədov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Qazaxıstanda tədbirlərin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib.

Hökumət başçıları Qazaxıstan Prezidentinin Azərbaycana ötənilki rəsmi səfərinin səmərəli nəticələrini də qeyd ediblər. Vurğulanıb ki, bu səfər bir sıra çox mühüm sənədlərin imzalanması ilə də əlamətdardır. Xüsusilə "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" Azərbaycan-Qazaxıstan əlaqələrini keyfiyyətcə yeni səviyyəyə yüksəldib.

Qazaxıstan Prezidentinin işğaldan azad edilən Füzuli şəhərində uşaqlar üçün Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin inşası təşəbbüsünə görə minnətdarlıq ifadə olunub.

Qeyd edilib ki, Azərbaycan və Qazaxıstan arasında əməkdaşlığın əsas istiqamətini ticari-iqtisadi əlaqələr təşkil edir. Tərəflər 2022-ci ildə əmtəə dövriyyəsinin əhəmiyyətli şəkildə - təxminən 4,5 dəfə artaraq 600 milyon dollar həddinə çatmasından məmnunluq ifadə ediblər. İki ölkənin iqtisadi inkişaf səviyyəsi və potensialı nəzərə alınmaqla, yeni göstəricilərə



nail olmaqdan ötrü bundan sonra da birgə səylərin ortaya qoyulacağına hazırlıq təsdiqlənib.

Ticari-iqtisadi əlaqələrin inkişafı məsələlərinin həllində Birgə hökumətlərarası komissiyanın rolu qeyd olunub.

Görüşdə nəqliyyat-logistika əlaqələrinə prioritet əhəmiyyət verilməsi vurğulanıb. Transxəzər beynəlxalq nəqliyyat marşrutunun (Orta dəhliz) əhəmiyyəti xüsusi qeyd olunub. Ötən il Azərbaycan və Qazaxıstan arasında yükdaşımaların ümumi həcminin təxminən 3 dəfə, tranzit yükdaşımalarının isə 3,2 dəfə artmasından məmnunluq ifadə edilib. Orta dəhliz ilə yüklərin nəqlinin artırılmasına dair dövlətlərimizin başçılarının tapşırıqlarının hökumətlər xətti ilə icra edilməsinə tərəflərin sadiqliyi ifadə olunub.

Baş nazirlər neft-qaz sahəsində əməkdaşlığın müsbət məcrada inkişafını vurğulayıb, Qazaxıstan neftinin cari ildə Azərbaycan vasitəsilə üçüncü ölkələrin bazarına tədarükə başlanmasını məmnunluqla qeyd ediblər.

İki ölkənin kənd təsərrüfatı, mədəni-humanitar və digər sahələrdə qarşılıqlı əlaqələri müsbət qiymətləndirilib.

Hökumət başçıları həmçinin bir sıra digər sahələrdə, o cümlədən yüksək texnologiyalar, telekommunikasiyalar və bərpaolunan enerji sahələrində qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər.

Azərbaycan və Qazaxıstan arasında danışıqların yekunlarına əsasən aşağıdakı sənədlər imzalanıb:

"AzerTelecom" MMC ilə "Kazakhtelecom" SC arasında Səhmdarlar Müqaviləsi";

"Azərbaycan Dəmir Yolları" QSC, "Qazaxıstan Dəmir Yolları Milli Şirkəti" SC və "Gürcüstan Dəmir Yolları" SC arasında birgə müəssisənin yaradılması və fəaliyyətinin əsas prinsipləri haqqında Saziş";

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz Milli Şirkət" SC arasında Qazaxıstan neftinin Azərbaycan Respublikasının ərazisindən tranzitinə dair strateji əməkdaşlıq haqqında Memorandum";

"Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Qazaxıstan Respublikasının Mədəniyyət və İdman Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu";

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Qazaxıstan Respublikasının Mədəniyyət və İdman Nazirliyi arasında idman sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu";

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Qazaxıstan Respublikasının Mədəniyyət və İdman Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu";

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Qazaxıstan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında 24 may 2005-ci il tarixli Saziş"in icrası ilə bağlı 2023-2024-cü illər üçün Tədbirlər Planı";

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Sənaye və İnfrastrukturun İnkişafı Nazirliyi arasında Görüşün Protokolu";

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Sənaye və İnfrastrukturun İnkişafı Nazirliyi arasında nəqliyyat sahəsində qarşılıqlı fəaliyyətin genişləndirilməsi və Orta dəhlizin rəqəmsallaşdırılması üzrə əməkdaşlıq Memorandumu";

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Sənaye və İnfrastrukturun İnkişafı Nazirliyi arasında gəmilərin və dəmir yolu lokomotivlərinin təchizatı sahəsində əməkdaşlıq haqqında Memorandum".

# *Komissiya sədri:* "Söyüdlü kəndində aparılan monitorinqin nəticələri qısa müddətdə ictimaiyyətə açıqlanacaq"

**"Söyüdlü kəndində sakinlərlə görüşdük. Yerində cavablandıra biləcəyimiz sualları cavablandırdıq. Narazılıq yaradan bütün məsələlər yoxlanılacaq və aydınlıq gətiriləcək".**



AZƏRTAC xəbər verir ki, bunu Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün yaradılan komissiyanın sədri, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev sakinlərlə görüşdən sonra jurnalistlərə açıqlamasında bildirib.

Komissiya sədri vurğulayıb ki, artıq kənddə bu istiqamətdə monitorinq işlərinə başlanılıb və nəticələri qısa müddətdə ictimaiyyətə açıqlanacaq.

Qeyd edək ki, ötən gün Baş nazir Əli Əsədovun sərəncamı ilə Gədəbəy rayonunun Söyüdlü kəndində tullantıxana sahəsində monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə komissiya yaradılıb. Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev komissiyanın sədri təyin edilib.

Komissiyaya Söyüdlüdə tullantıxana sahəsində monitorinqlər aparmaq və mövcud vəziyyəti qiymətləndirmək, sakinlərin sağlamlığının və ətraf mühitin qorunması sahəsində vətəndaşların müraciətlərini araşdırmaq, monitorinqin və qiymətləndirmənin nəticələrinə uyğun olaraq müvafiq təkliflər hazırlayaraq Nazirlər Kabinetinə təqdim etmək tapşırılıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

**Prezident İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov iyunun 22-si Samux rayonunda Samux və Göygöl rayonlarından olan vətəndaşlarla görüşüb.**

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# Ödəniş sistemləri və xidmətləri ilə bağlı qanun layihəsi hazırlanıb

**İyunun 22-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasın gündəliyinə 3 məsələ - "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" və "Dövlət satınalmaları haqqında" yeni qanun layihələri, habelə Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi daxil edilib. Hər üç sənəd birinci oxunuşda müzakirəyə çıxarılıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə iclasda "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" yeni qanun layihəsinə baxılıb. Komitə sədri Tahir Mirkişili məsələ ilə bağlı çıxışında ölkədə ödəniş sistemində innovativ üsullardan istifadə sahəsində mövcud durumdan, bu sahədə fəaliyyət göstərən şirkətlərin həyata keçirdiyi tədbirlərdən, nağdsız ödənişlərin səviyyəsinin artmasından bəhs edib. O, bu fəaliyyət növünün qanunvericiliklə tənzimlənməsinin zəruriliyini qeyd edərək təqdim olunan qanun layihəsinin əhəmiyyətindən danışıb.

İclasda iştirak edən Mərkəzi Bank sədrinin birinci müavini Rəşad Orucov ödəniş xidmətlərinin və ödəniş sistemlərinin ölkənin maliyyə sektorunda sürətlə inkişaf edən sahələrdən biri olduğunu deyib. O, bu istiqamətdə istifadəçilərin hüquqlarının qorunması, aparılan əməliyyatların təhlükəsizliyinin təmin edilməsi, bu sahədə xidmət göstərən təşkilatlara qoyulan tələblərin sistemləşdirilməsi, onların fəaliyyətinə nəzarətin təmin edilməsinin vacibliyindən söhbət açıb. Qeyd edib ki, ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin, habelə ölkə başçısının 26 sentyabr 2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi ilə əlaqədar göstərilən istiqamətlərdə hüquqi bazanın təkmilləşdirilməsi çərçivəsində "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" yeni qanun layihəsi hazırlanıb və Milli Məclisə təqdim olunub.

Sonra tədbirdə Mərkəzi Bankın Baş direktoru Fərid Osmanov həmin qanun layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, qanun ödəniş sistemlərinin, ödəniş xidmətlərinin, ödəniş təşkilatlarının, elektron pul təşkilatlarının və ödəniş sistemi operatorlarının fəaliyyətinin hüquqi əsaslarını və bu sahədə tənzimləmə və nəzarətin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir. Sənəddə əsas anlayışlar, ödəniş xidmətlərinin növləri, ödəniş xidməti təchizatçılarının, ödəniş təşkilatının və elektron pul təşkilatının



fəaliyyəti ilə bağlı məsələlər müvafiq maddələrdə öz əksini tapıb. Habelə pul vəsaitlərinin təhlükəsizliyinin təmin olunması, mühasibat uçotu və maliyyə hesabatlarının aparılması, müraciətlərə baxılması və mübahisələrin həllinə dair qaydalar müəyyənləşdirilir.

Bildirilib ki, layihədə elektron pulla bağlı tənzimləmə prosesi, açılmış ödəniş hesabları və ödəniş xidmətlərinin göstərilməsi ilə bağlı məlumatlandırma şərtləri, ödəniş sərəncamının icrası və tərəflərin məsuliyyəti ilə əlaqədar məqamlar ehtiva olunur. Bununla yanaşı, layihədə ödəniş sistemlərinin təşkili və qaydaları, hesablaşmaların aparılması, lisenziyalaşdırma və qeydiyyata dair tələblər, elektron pul təşkilatları və operatorların müqavilə əsasında fəaliyyəti, ödəniş təşkilatının və elektron pul təşkilatının filial və nümayəndəliyinin açılması, xarici ödəniş təşkilatının və xarici elektron pul təşkilatının yerli filialının lisenziyalaşdırılması, hesab üzrə məlumat xidməti təchizatçısının reyestrə daxil edilməsi və çıxarılması, nəzarət subyektlərinin rəhbərlərinə qarşı tələblər, dövlət tənzimlənməsi və nəzarəti ilə bağlı meyarlar əks olunub.

Məsələ ətrafında aparılan müzakirələrdə komitənin sədr müavini Əli Məsimli, üzvləri Məşhur Məmmədov, Vahid Əhmədov, Rüfət Quliyev, Mahir Abbaszadə, Məzahir Əfəndiyev bank sahəsində yeni texnologiyaların geniş tətbiqini təqdir edərək sənədin nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi, bu sahədə çalışan şirkətlərin və istehlakçıların hüquqlarının qorunması baxımından önəmli olduğunu bildiriblər. Deputatlar məsələ ilə bağlı bəzi qeyd və təkliflərini də səsləndiriblər. Mərkəzi Bankın Baş direktoru Fərid Osmanov qaldırılan məsələlərə aydınlıq gətirib.

İclasda çıxış edən "GoldenPay" şirkətinin İdarə Heyətinin sədri Naina Mehdiyeva, "PashaPay" şirkətinin İdarə Heyətinin sədr müavini Pünhan Nərimanov da məsələ ilə bağlı fikirlərini açıqlayıblar.

Müzakirələrin yekununda qanun layihəsi birinci oxunuşda Milli Məclisin iclasına tövsiyə olunub.

Sonra tədbirdə "Dövlət satınalmaları haqqında" yeni qanun layihəsi təqdim olunub. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli məsələ barədə məlumat verərək qanunun Azərbaycan Respublikasında dövlət satınalmalarının iqtisadi, hüquqi və təşkilati əsaslarını və qaydalarını müəyyən etdiyini söyləyib.

Bildirilib ki, qanunda dövlət satınalmalarının əsas prinsipləri, təchizatçıların satınalmalarda iştirakı, saxtakarlıq halları və onların aradan qaldırılması, məxfiliklə bağlı qaydalar müəyyənləşdirilir. Qanun layihəsinin müvafiq maddələrində satınalmalara cəlb olunan vəzifəli şəxslərin davranış kodeksi, təchizatçılarla danışıqların və görüşlərin keçirilməsi, satınalan təşkilatla təchizatçıların bir-birinə göndərdikləri sənədlərin və məlumatların təqdim edilməsi formaları, dövlət satınalmalarına nəzarətin xüsusiyyətləri öz əksini tapıb.

Qeyd olunub ki, layihədə satınalmanın yalnız portal vasitəsilə həyata keçirilməsi, təkliflərin cəlb edilməsi barədə elanların portalda yerləşdirilməsi, məxfi məlumatlarla əlaqəli satınalmaların və bu satınalmalarla bağlı prosedurların kağız daşıyıcılarında həyata keçirilməsi nəzərdə tutulub. Sənəddə habelə satınalmaların planlaşdırılması və mərhələləri, satınalma komissiyasının formalaşdırılması və komissiyanın məsuliyyəti, təchizatçıların uyğunluq göstəriciləri, təkliflərin qiymətləndirilməsi, satınalmaya dair hesabatın hazırlanması və satınalma müqaviləsinə dair digər tələblər, o cümlədən satınalmanın dayandırılması şərtləri göstərilir.

Qanun layihəsi barədə fikirlərini açıqlayan komitənin sədri Tahir Mirkişili, sədr müavini Əli Məsimli, üzvləri Vahid Əhmədov, Rüfət Quliyev, Məşhur Məmmədov, Məzahir Əfəndiyev, Aydın Hüseynov sənədi müsbət qiymətləndirərək onun günün tələblərinə uyğun olduğunu bildiriblər, bəzi qeydlərini diqqətə çatdırıblar.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli və Xidmətin şöbə müdiri Əhməd Həsənov millət vəkillərinin suallarını cavablandırıblar.

İclasda iştirak edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxışında dövlət satınalmaları sahəsində olan pozuntulardan, onların səbəbləri və aradan qaldırılması istiqamətində atılan addımlardan danışıb. O, bu sahədə fəaliyyətin tənzimlənməsi, nəzarət tədbirlərinin keyfiyyətinin artırılmasının vacibliyi ilə bağlı fikirlərini açıqlayıb.

Fikir mübadiləsinin sonunda qanun layihəsi birinci oxunuşda Milli Məclisin iclasına tövsiyə olunub.

Gündəliyin sonuncu məsələsi - Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "İnzibati icraat haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənədlə əlaqədar bildirilib ki, adları çəkilən qanunlara "Dövlət satınalmaları haqqında" yeni qanun layihəsi ilə əlaqədar uyğunlaşdırma xarakterli bəzi düzəlişlər təklif olunur.

Bu qanun layihəsi də birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Çexiya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupun üzvləri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 22-də ölkəmizdə səfərdə olan Çex Respublikası Parlamentinin Deputatlar Palatasında Çexiya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu bildirən Milli Məclisin Sədri bu səfərin iki ölkənin qanunvericilik orqanları arasında münasibətlərin genişlənməsinə töhfə verəcəyinə ümidvar olduğunu söyləyib. Görüşdə parlamentlərimizin dostluq qrupları arasında təmasların, qarşılıqlı səfərlərin əhəmiyyəti ilə bağlı fikirlər səsləndirilib. Azərbaycanın Avropanın etibarlı enerji təchizatçısı və mühüm iqtisadi tərəfdaş ölkə olaraq əldə etdiyi nailiyyətlər diqqətə çatdırılıb.

Milli Məclisin Sədri Azərbaycanda və regionda mövcud olan vəziyyət barədə qonaqlara geniş məlumat verib. Qeyd olunub ki, Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayıb. Ölkəmiz bu illər ərzində dünyada mövcud olan ikili standartlardan əziyyət çəkib, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına son qoyulması, torpaqlarımızın qeyd-şərtsiz işğaldan azad olunması ilə bağlı beynəlxalq təşkilatların qərar və qətnamələri icra olunmayıb. 2020-ci ildə isə Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin edib, öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib.

Bildirilib ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərdə işğal dövründə dağıdılmış bütün infrastrukturu, şəhərləri, kəndləri yenidən tikir, bərpa edir. Söhbətdə həmçinin işğal dövründə və üçtərəfli Bəyanatın imzalanmasından sonrakı dövrdə Ermənistan tərəfindən ərazilərin minalanmasının işğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərinə yaratdığı maneə və təhlükələr diqqətə çatdırılıb, Azərbaycanın sülh istədiyi, Ermənistanla sülh sazişinin imzalanması təşəbbüsünü irəli sürdüyü, hazırda sülh danışıqlarının davam etdiyi bildirilib.

Çex Respublikası Parlamentinin Deputatlar Palatasında Çexiya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Yan Kubik Azərbaycana, o cümlədən işğaldan azad olunmuş Ağdam rayonuna səfərləri, keçirdiyi görüşlərlə bağlı təəssüratlarını bölüşüb. O, ölkələrimiz haqqında həqiqətlərin, məlumatların ictimaiyyətə doğru çatdırılması, parlamentlərimiz arasında əlaqələrin genişləndirilməsi baxımından bu cür səfərlərin önəmini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Çexiyalı parlamentarilər Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət etmişlər





Ölkəmizdə səfərdə olan Çex Respublikası Parlamentinin Deputatlar Palatasının Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Yan Kubik və Deputatlar Palatasının üzvü Mişal Ratiborski iyunun 22-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüblər.

Sonda Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatı, Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elnur Allahverdiyev və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Çex nümayəndə heyəti ilə görüş keçirilmişdir

**İyunun 22-də Milli Məclisin Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elnur Allahverdiyev Çex Respublikası Parlamentinin Deputatlar Palatasının Çexiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Yan Kubikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Elnur Allahverdiyev ölkəmizin Çex Respublikası ilə əlaqələrin hərtərəfli inkişafına böyük əhəmiyyət verdiyini deyib. O, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətlərinin inkişafında dövlət başçılarımızın rolunu yüksək qiymətləndirib.

İkitərəfli əlaqələrin dərinləşməsində qanunverici orqanların rolunu qeyd edən Elnur Allahverdiyev Milli Məclisin Sədri Sahibə Qafarovanın parlamentlərarası əməkdaşlığın möhkəmlənməsinə verdiyi dəstəyi xüsusi qeyd edib. O, başçılıq etdiyi işçi qrupun Azərbaycan həqiqətlərinin Çex parlamentinin diqqətinə çatdırılması sahəsində atılacaq ardıcıl addımlar barədə fikirlər söyləyib.

Qonaqların işğaldan azad olunmuş Ağdam şəhərinə səfərini qeyd edən Elnur Allahverdiyev Azərbaycanın Ermənistan işğalından azad edilmiş ərazilərində aparılan irimiqyaslı tikinti-bərpa və abadlıq-quruculuq işlərində çex iş adamlarının da yaxından iştirakına ümidvar olduqlarını diqqətə çatdırıb.

Yan Kubik qəbula görə təşəkkür edərək, Çexiyanın dost Azərbaycanla əlaqələri daha da inkişaf etdirmək niyyətini vurğulayıb, yeni əməkdaşlıq imkanlarının araşdırılmasına ehtiyac olduğunu və Çexiyaya qayıtdıqdan sonra bu istiqamətdə müvafiq işlərin aparılacağını bildirib. O, çex iş adamlarının da Qarabağda gedən irimiqyaslı abadlıq-quruculuq işlərində iştirakının mümkünlüyünü qeyd edib.

Milli Məclisin Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Jalə Əhmədova, Nurlan Həsənov və Çexiyanın Azərbaycandakı səfiri Milan Sedlaçek çıxış edərək ölkələrarası ikitərəfli əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikirlərini səsləndiriblər.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Koreya Azərbaycanla əlaqələrin daha da dərinləşməsində maraqlıdır

**İyunun 22-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva Koreya Respublikası xarici işlər nazirinin xüsusi nümayəndəsi Bek Cuhyonun ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı salamlayan Sevinc Fətəliyeva diplomatik əlaqələrimizin qurulmasından ötən 30 il ərzində münasibətlərimizin davamlı inkişaf etdiyini vurğulayıb və Koreya şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyini bildirib.

Sevinc Fətəliyeva qonağa Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son vermiş 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranan vəziyyət, ermənilərin işğal dövründə törətdiyi müharibə cinayətləri, mədəni, tarixi, dini abidələrimizi məhv etmələri, regionda davamlı sülhün yaradılması istiqamətində Azərbaycanın göstərdiyi səylər və aparılan sülh danışıqları barədə məlumat verib. Diqqətə çatdırılıb ki, artıq işğaldan azad edilmiş ərazilərdə tikintisi başa çatan ilk yaşayış məntəqələrinə məcburi köçkünlərin qaytarılması prosesinə start verilib.

Parlamentlərarası əlaqələrin dövlətlərarası münasibətlərdə mühüm olduğunu deyən Sevinc Fətəliyeva bu əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyindən danışıb.

Koreya Respublikası xarici işlər nazirinin xüsusi nümayəndəsi Bek Cuhyonun ölkəsinin Azərbaycanla bütün sahələrdə əlaqələrin daha da dərinləşdirilməsində maraqlı olduğunu qeyd edib, parlamentlərin Azərbaycan və Koreya arasında münasibətlərin inkişafına mühüm töhfələr verdiyini bildirib. Ermənistanın işğalı zamanı Azərbaycan ərazilərinin dağıdılmasını təəssüflə qeyd edən qonaq işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın bərpa və yenidənqurma işində nailiyyətlərini təqdirəlayiq olduğunu bildirib. Qonaq iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Yeni yaradılan Azərbaycan Poçt Daşıyıcıları Assosiasiyasının vəzifələrindən danışılmışdır

**İyunun 22-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Azərbaycan Poçt Daşıyıcıları Assosiasiyasının nümayəndələri ilə görüşüblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli qonaqları salamlayaraq, yeni yaradılmış bu assosiasiyanın işinə uğurlar arzulayıb. O, bildirib ki, bu qurum mühüm əhəmiyyətli işlərlə məşğuldur və əminik ki, qarşısına qoyulmuş məqsədlərə nail olacaqdır.

Görüşə görə təşəkkürünü bildirən Azərbaycan Poçt Daşıyıcıları Assosiasiyasının sədri Şaiq Qəribzadə rəhbərlik etdiyi qurumda dünyanın bir sıra böyük poçt şirkətlərinin Azərbaycan nümayəndəliyinin təmsil olunduğunu diqqətə çatdırıb. O, qeyd edib ki, assosiasiyanın əsas məqsədi bu quruma üzv olan poçt təşkilatlarının maraqlarının qorunması, dövlət strukturları ilə sahibkarlar arasında körpü rolu oynamaqdır.

Söhbət zamanı poçt qanunvericiliyinin təkmilləşdirilməsində ictimai iştirakçılıq, beynəlxalq poçt daşımaları sahəsində mövcud problemlər, bu sahədə yeni çağırışlar və digər mövzularda fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri, deputatlar Məzahir Əfəndiyev, Mahir Abbaszadə, assosiasiyanın İdarə Heyətinin üzvləri Rəşad Abbasov, Şaiq Mansurov, Nazim Xudaverdiyev və digər şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına nəzarət və hesabatlılıq portalı ilə bağlı təlimlər olub

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın monitorinq və qiymətləndirilməsinin elektron formada aparılmasının təmin edilməsi məqsədilə yaradılan "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına nəzarət və hesabatlılıq portalı"nın işləmə mexanizmlərinin izahı və tətbiqinə dair təlimlər keçirilib.**

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, hibrid formatda keçirilən təlimlərdə dövlət proqramının icrasında iştirak edən 44 dövlət qurumunun 200-ə yaxın səlahiyyətli nümayəndəsinə sözügedən portaldan istifadə qaydaları, şərtləri və bölmələri haqqında ətraflı məlumat verilib. Eyni zamanda bir neçə tapşırığın icrası test edilib. Təlimləri İİTKM-nin Monitorinq və qiymətləndirmə şöbəsinin Sahəvi proqramların monitorinqi sektorunun baş məsləhətçisi Coşqun Cəfərov və İqtisadiyyat Nazirliyinin tabeliyində olan İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzinin əməkdaşları həyata keçiriblər.

Qeyd edək ki, Baş nazirin sərəncamı əsasında İİTKM Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icrası üzrə işlərin gedişinə nəzarətin həyata keçirilməsi məqsədiilə "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına nəzarət və hesabatlılıq portalı"nın yaradılmasını həyata keçirir.

# OPEC-in Baş katibinin rəhbərlik etdiyi nümayəndə heyəti Səngəçal terminalına səfər edib

**Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qaysın rəhbərlik etdiyi nümayəndə heyəti bp-nin əməliyyatçısı olduğu Səngəçal terminalına səfər edib.**



bp-dən AZƏRTAC-a bildirilib ki, səfər zamanı qonaqlar əməliyyat sahəsinə, Xəzər Enerji Mərkəzinə, "Şahdəniz" və "Azəri-Mərkəzi-Şərqi" (ACE) platformalarının birgə idarəetmə otağına baş çəkiblər.

Həmçinin onlara terminalın Azərbaycanın enerji layihələrinin icrasındakı əhəmiyyəti, bp-nin operatoru olduğu layihələrin hazırkı vəziyyəti və Avropanın enerji təminatındakı rolu barədə məlumat verilib.



# Çindən Zəngilana, Naxçıvandan Avropaya

## İlham Əliyevin qlobal təşəbbüsləri ilə Azərbaycan Avrasiyada yeni nəqliyyat-tranzit habına çevrilməkdədir

*Əvvəli 1-ci səh.*

Çünki Rusiya vasitəsilə Asiyadan Avropa Birliyi (Aİ) bazarlarına məhsulların tədarükündə problemlərin yaranması Orta dəhlizə olan marağı daha da artırıb. Bu baxımdan dəhlizin fəaliyyətinin gücləndirilməsi Qərb və Şərq arasında təbii körpü rolunu oynayan Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır.

Azərbaycan Orta dəhlizin reallaşması üçün çox mühüm addımlar atmaqdadır. Zəngəzur dəhlizinin açılması istiqamətində reallaşdırılan layihələr də bunun bariz təcəssümüdür.

Qlobal layihələrin müəllifi, təşəbbüskarı kimi tanınan İlham Əliyev bu barədə həm xarici ölkələrə səfərlərində, həm ölkə daxilində keçirdiyi görüşlərdə, beynəlxalq forum və konfranslardakı çıxışlarında çox əhatəli şəkildə məlumat verir. Azərbaycan Prezidenti həm görülən işlərdən danışır, həm dəhlizin yaradacağı imkanları izah edir, həm də dəhliz üzərindəki ölkələri bu prosesə dəstək verməyə çağırır. İlham Əliyev əminliklə vurğulayır ki, Azərbaycan Zəngəzur dəhlizini reallaşdırdıqda ilk növbədə türk dünyası ölkələri üçün çox əlverişli imkanlar yaranacaq. Eyni zamanda Asiyadan Avropaya ən qısa marşrutun yaranması qədim böyük İpək yolunun yenidən canlanmasını və ən əlverişli nəqliyyat-ticarət xəttinə çevrilməsini şərtləndirəcək.

### "Zəngəzur dəhlizinin açılması qaçılmazdır"

Sonuncu dəfə isə iyunun 13-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri zamanı liderlərin mətbuata birgə bəyanatlarında iki qardaş Prezident Zəngəzur dəhlizinin perspektivlərinin izahını verdi.

İlham Əliyev dedi ki, indiki geosiyasi şəraitdə Orta dəhlizin önəmi daha da artır. Azərbaycan ərazisindən, yəni Xəzər dənizi ilə daşınan yüklərin həcmi ildən-ilə artmaqdadır və daha da artacaq. Ona görə Azərbaycan nəqliyyat və logistika imkanlarını genişləndirir. Bakı Dəniz Limanının imkanları 25 milyon tona yüksəldilir, dəmir yolu, gəmiqayırma zavodu və digər nəqliyyat infrastrukturu ən müasir səviyyəyə gətirilir. Bütün bunların fonunda Zəngəzur dəhlizinin açılması da əsas şərtlərdən biridir. Ona görə də Azərbaycan bu dəhlizin açılmasında israrlıdır: "Zəngəzur dəhlizinin açılması qaçılmazdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Hər halda biz bu istiqamətdə səylərimizi artıracağıq. Bu dəhlizin açılması bütün ölkələr üçün yeni imkanlar açacaq və bölgədə işbirliyi məsələlərinə də müsbət təsir göstərəcək".

Rəcəb Tayyib Ərdoğan isə bildirdi ki, son zamanlarda iki qardaş ölkə bu dəhlizin açılması istiqamətində çox çalışır. Bu dəhlizin açılması iki mühüm imkanı qazandıracaq. İstər avtomobil yolu, istərsə dəmir yolu ilə bağlı atılacaq addımlar sayəsində buradan İğdıra, Naxçıvana yolun açılması ilə Türkiyənin Naxçıvanla əlaqəsi daha güclü olacaq. Bu əlaqələrin yaradılması Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin daha da güclənməsinə imkan verəcək.

İyunun 17-də isə İlham Əliyevlə ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında olarkən də Zəngəzur dəhlizi ilə bağlı fikirlər səsləndirilib.

Qeyd edilib ki, Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. İqtisadi zona yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də ölkəmizin ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq.

Göründüyü kimi, dəhlizin açılması iki qardaş ölkənin liderlərinin müzakirə etdikləri prioritet məsələlərdəndir. Əlbəttə ki, hər kəsə, hətta məğlub Ermənistana da yaxşı bəllidir ki, Azərbaycan Prezidentinin sözü imzası qədər keçərlidir. Əgər İlham Əliyev hansısa məsələnin həll olunacağını söyləyirsə, tezliklə həmin proses reallığa çevrilir. Bunu ermənilər də etiraf edirlər ki, əgər İlham Əliyev deyirsə ki, Zəngəzur dəhlizi açılacaq, Azərbaycanın Naxçıvanla əlaqələri yenidən bərpa olunacaq, demək, yaxın zamanlarda Zəngilandan muxtar respublikaya avtomobil və qatar yolu çəkiləcək.

### Zəngəzur dəhlizinin açılması Naxçıvanın inkişafına mühüm töhfə verəcək

Əgər Zəngəzur dəhlizi açılarsa, təbii ki, bu, Naxçıvanın sosial-iqtisadi inkişafına mühüm töhfə verməklə yanaşı, muxtar respublikanın blokada şəraitindən qurtuluşunu da təmin edəcək.

İlham Əliyevin müəllifi olduğu "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da bu məsələyə xüsusi yer ayrılıb. Prezidentin imzaladığı fərmanda göstərilir ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranmış yeni reallıq Orta dəhlizin inkişaf perspektivlərini gündəmə gətirməklə, Zəngəzur dəhlizinin açılmasını zəruri edib və Naxçıvanın tranzit potensialını genişləndirib. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri və tətbiq olunan güzəştlər, həmçinin Zəngəzur dəhlizi vasitəsilə bu ərazilərin Naxçıvanla nəqliyyat əlaqələrinin qurulması perspektivi analoji güzəştlərin muxtar respublikada da tətbiqinə imkanlar yaradır.

Dövlət proqramına əsasən, Zəngəzur dəhlizinin açılması ilə əlaqədar Naxçıvanda dəmiryol infrastrukturu da yeniləsnəcək. Bununla da Zəngəzur dəhlizinin açılması ilə Naxçıvan Avropa və Asiyanı əlaqələndirən əsas nəqliyyat-tranzit mərkəzinə çevriləcək. Bu isə Naxçıvanın qərbdən Türkiyədən keçməklə Avropa ilə, şərqdən isə İran-Türkmənistan yolu ilə Asiya ölkələri ilə əlaqələndirilməsini təmin edəcək.

Son olaraq isə onu deyək ki, iyunun 19-da Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu Zəngəzur dəhlizinin imkanlarını dəyərləndirərkən qeyd edib ki, Zəngəzur dəhlizinin açılması ilə Orta dəhlizin dəmir və avtomobil yolları ilə yükdaşıma qabiliyyəti artacaq. Onun sözlərinə görə, bu da şərq-qərb ticarətinin artmasına müsbət töhfə verəcək.

Nazir qeyd edib ki, Orta dəhlizin səmərəliliyinin artması ilə Xəzər dənizində Azərbaycanla həyata keçirilə biləcək layihələr, o cümlədən Naxçıvan və Rusiya ilə nəqliyyat, enerji əməkdaşlığı sahəsində Türkiyənin regiondakı strateji mövqeyinin əhəmiyyəti artacaq. Uraloğlu Zəngəzur dəhlizinin Ermənistan sərhədinə qədər olan hissəsinin tikintisinin davam etdiyini, Horadizdən Naxçıvanın Ordubad rayonuna 166 kilometrlik yeni dəmir yolunun çəkiləcəyini bildirib. Dəhlizin Ermənistana məxsus 43 kilometrlik hissəsinin tikintisi ilə bağlı Azərbaycanla Rusiya arasında danışıqlar aparılacaq. Ordubaddan Naxçıvanın şimalında yerləşən Vəlidağ stansiyasına qədər olan 158 kilometrlik xətt əsaslı şəkildə təmir olunacaq. Bundan əlavə, xətt Vəlidağdan Ermənistan sərhədinə qədər 14 kilometr uzadılacaq. Bununla da Bakı-Tbilisi-Qars dəmir yoluna alternativ olaraq Qars-Dilucu vasitəsilə Naxçıvan ərazisindən dəhlizə çıxış əldə etmək mümkün olacaq.

Bir sözlə, Zəngəzur dəhlizinin açılması həm Azərbaycanın Qafqazda mühüm nəqliyyat-tranzit habına çevrilməsini, Naxçıvanın yüksəlişini təmin edəcək, həm də Orta dəhlizin fəaliyyətinə mühüm töhfə vermiş olacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# *Səməd SEYİDOV:* "AŞPA-da ikili standartlar hələ də davam edir"

**Avropa Şurası Parlament Assambleyasının yay sessiyası artıq məntiqi yekuna yaxınlaşır. Azərbaycanla bağlı iki istiqamətdə müzakirələr oldu. Birincisi, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvlərinin Avropa problemləri ilə bağlı təqdimatları oldu.**

Nümayəndə heyətinin üzvləri Nigar Arpadarainin "Miqrantların, qaçqınların və məcburi köçkünlərin idman vasitəsilə sosial inteqrasiyası" və Kamal Cəfərovun "Böyük Britaniyanın insan hüquqları qanunvericiliyində islahatları: daxili və Avropa insan hüquqlarının qorunmasının nəticələri" adlı məruzələri dinlənildi. Avropada aidiyyəti sahələrdə mövcud narahatedici problemləri şərh edən bu məruzələr avropalı parlamentarilərin səsverməsi ilə qəbul olundu. Nümayəndə heyətimizin digər üzvləri də bizi narahat edən məsələlərlə bağlı fikirlərini bildirdilər. Türkiyədə keçirilmiş seçkilərlə bağlı mövqeyimizi ifadə etdik. Ermənilərin sülh prosesində destruktiv mövqeyi ilə bağlı məlumatları sessiya zalında səsləndirdik.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Azərbaycanın AŞPA-da nümayəndə heyətinin rəhbəri Səməd Seyidov ifadə edib.

"Ancaq təəssüf ki, Avropa Şurası Parlament Assambleyasında ikili standartlar hələ də davam edir. Debatlarda Azərbaycanla bağlı qeyri-obyektiv və reallıqdan uzaq məruzə dinlənildi. Məruzənin müəllifi irlandiyalı deputat Pol Qavandır (Paul Gavan). Laçın dəhlizi ilə bağlı məruzəni hələ yanvar ayından gündəliyə salmaq istəyirdilər. Ancaq o vaxt ermənilər buna nail ola bilmədilər.

Azərbaycanın ərazilərinin təhlükəsizliyini, erməni əsilli vətəndaşlarının təhlükəsiz, sərbəst giriş-çıxışını təmin etməsi ilə vəziyyətin normallaşmağa doğru getdiyini görən erməni separatçılar və onların hamiləri bu məsələni Assambleyanın gündəminə gətirmək məqsədilə yenidən təxribatlara əl atdılar. Əlbəttə, bu məruzə ilə bağlı əlavə məlu-



matlar verib, fikrimizi bildirmişik. Məruzədən kənar geniş maarifləndirmə işi aparmışıq. Bildirmişik ki, bu məruzə Ermənistan-Azərbaycan sülh danışıqlarına ağır zərbədir. Təəssüf ki, AŞPA Fransanın yolunu seçir və bu, təsadüfi deyil, çünki AŞPA-nın qərargahı Fransada yerləşir", - deyə S. Seyidov bildirib. Qeyd edilib ki, müəyyən qüvvələr qeyri-obyektiv mövqe ilə danışıqlar prosesinə mane olmağa, ona xələl gətirməyə çalışırlar.

Azərbaycan nümayəndə heyətinin rəhbəri deyib ki, ancaq onların bu cəhdləri daha çox Ermənistanın daxilində gedən mübarizə ilə bağlıdır. Bu məruzə ilə onlar həm sülh danışıqlar prosesini pozmaq, həm də Ermənistandakı indiki hakimiyyəti devirmək istəyirlər. Erməni terrorçular, separatçılar, köhnə cinayətkarlar kimi müharibə tərəfdarları bundan sui-istifadə etmək istəyirlər.

Vurğulanıb ki, AŞPA-da belə bir məruzəni dinləmək, ilk növbədə bu təşkilatın özünün nüfuzuna zərbədir. Belə bir təşkilat lobbi qarşısında aciz olduğunu, eləcə də Ermənistanın daxilində hakimiyyət davası aparan qüvvələrin əlində alətə çevrildiyini göstərir.

"Proseslər göstərir ki, Azərbaycan ilə Ermənistan arasındakı birbaşa danışıqların alternativi yoxdur. Bunu iki gün əvvəl Avropa Şurasının Baş katibi də sessiyadakı çıxışı zamanı açıq şəkildə dedi. İndi bu təşkilatda paradoksal vəziyyət yaranıb. Baş katib tərəflərin birbaşa görüşünün tərəfdarı olduğu və bunu yüksək tribunadan bəyan etdiyi halda, Parlament Assambleyasında reallığı əks etdirməyən məruzə dinləməyə çıxarılır və iki ölkə arasında danışıqlara müdaxilə etməyə cəhd göstərilir. Belə siyasi oyunlar Azərbaycanın daxili işinə müdaxilə cəhdidir. Bu isə mümkün deyil. Qarabağ məsələsi artıq öz həllini tapıb və Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır. Onlarla danışıq isə daxili işimizdir. Heç kimin daxili işlərimizə müdaxilə etmək hüququ yoxdur.

Azərbaycanın öz sərhədində yaratdığı nəzarət-buraxılış məntəqəsi isə onun ərazilərinə daxil olmağa çalışan silahlı qüvvələrin, hərbçilərin qarşısını almağa xidmət edir. Vətəndaşlarının təhlükəsizliyini təmin etmək Azərbaycanın öhdəliyidir. Laçındakı nəzarət məntəqəsi Azərbaycanın suveren ərazisində yerləşir.

Daxilindəki problemlərə biganə qalan Fransa digər ölkələrdə problemlər axtarışındadır",- deyən Səməd Seyidov bəzi qüvvələrin siyasi oyunlarının heç bir nəticə verməyəcəyini vurğulayıb.

# "Vişeqrad qrupu ölkələri və Azərbaycan" adlı seminar təşkil edilib

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Slovakiyanın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə iyunun 22-də "Vişeqrad qrupu ölkələri və Azərbaycan" adlı beynəlxalq seminar keçirilib.**



AZƏRTAC xəbər verir ki, BMTM-in sədri Fərid Şəfiyev Azərbaycanın Avropa İttifaqı ölkələri ilə strateji əməkdaşlığı olduğunu deyib. O bildirib ki, Azərbaycan Vişeqrad qrupunun bütün ölkələri ilə də strateji tərəfdaşlıq münasibətləri saxlayır. Azərbaycanın Polşa, Slovakiya, Macarıstan ilə əməkdaşlığı ortaq tarixlə yanaşı, eyni maraqlara əsaslanır.

Slovakiyanın Azərbaycandakı səfiri Milan Layçak Sovet İttifaqı dağıldıqdan sonra müstəqillik əldə edən ölkələrin ortaq çağırışlarla, problemlərlə üzləşdiklərini söyləyib. O qeyd edib ki, bu problemlər əsasən bazar iqtisadiyyatına keçid, təhlükəsizlik məsələləri ilə bağlı idi.

Uzunmüddətli risklərdən danışan səfir deyib ki, Slovakiya Avropa İttifaqının ən həssas ölkələrindən birinə çevrilir. Çünki robotlaşma sosial problemlərə və işsizliyə səbəb ola bilər.

Ölkəmizin iqtisadi inkişafına toxunan Milan Layçak Azərbaycanın 2002-2006-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası qəbul etdiyini xatırladıb. Bildirib ki, Dünya Bankının hesabatında Azərbaycan üçün yaxşı perspektivlər qeyd edilib.

"Rusiya-Ukrayna müharibəsi fonunda Vişeqrad qrupu ölkələri və Azərbaycan: Enerji böhranı ilə bağlı problemlər və onların həll yollarının axtarışı" adlı paneldə çıxış edən Macarıstanın Xarici İşlər və Ticarət İnstitutunun (IFAT) baş elmi işçisi Sandor Seremet Rusiya-Ukrayna müharibəsindən sonra Macarıstanın üzləşdiyi çətinliklər və bu cür faciəli vəziyyətin ölkənin enerji təhlükəsizliyinə təsiri barədə fikirlərini bölüşüb. Bildirib ki, bu müharibənin başlanması nəinki qitədə yaxşı qurulmuş təhlükəsizlik sistemini sarsıtdı, həmçinin ağır humanitar böhrana gətirib çıxardı.

Panel iclasında çıxış edən SOCAR-ın Xarici əlaqələr şöbəsinin rəhbəri Əli Şahbazov qeyd edib ki, qlobal böhran və münaqişə beynəlxalq bazarda enerji qiymətlərinə ciddi təsir edib. O, bu müharibənin Avropanın "yaşıl enerjiyə" keçidi sürətləndirdiyini vurğulayıb. "Yaşıl enerji", xüsusilə külək enerjisi üzrə ölkəmizin böyük potensialı olduğunu deyən Əli Şahbazov diqqətə çatdırıb ki, Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanan anlaşma memorandumu "yaşıl enerji" sahəsində yaxın əməkdaşlıq üçün baza yaradıb.

Seminarın "Vişeqrad qrupu ölkələri və Azərbaycan üçün gələcək texnoloji transformasiya üzrə çağırışlar" adlı ikinci panelində Slovakiyanın "Danubius" Universitetinin rektoru, professor Peter Plavkan, Polşanın Beynəlxalq Əlaqələr İnstitutunun Qlobal Problemlər Proqramının tədqiqat ofisinin rəhbəri Şimon Zareba, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin şöbə müdiri Ayaz Müseyibov çıxış ediblər.

Tədbirdə Rusiya və Ukrayna müharibəsi fonunda enerji böhranı ilə bağlı problemlər və onların həll yolları, Vişeqrad qrupu ölkələri və Azərbaycan üçün gələcək texnoloji transformasiya üzrə çağırışlara dair müzakirələr aparılıb.

# ÜST FHN-in tibb heyətinin fəaliyyətini yüksək qiymətləndirib

Fövqəladə Hallar Nazirliyi (FHN) Tibb Xidmətinin Tibb Mərkəzinin rəis müavini baş leytenant Davud Soltanov və həkim nevropatoloqu tibb xidməti mayoru Lamiyə Köçərli İstanbul şəhərində Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və Türkiyənin Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən, fevralın 6-da qardaş ölkədə baş vermiş ağır zəlzələnin fəsadlarının aradan qaldırılmasında iştirak etmiş təcili tibbi yardım qruplarının fəaliyyətinə həsr olunmuş dünya ölkələrinin təcili tibbi yardım qruplarının beynəlxalq seminarında iştirak ediblər.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, ABŞ, Almaniya, Yaponiya, Kuba, Malayziya, Qazaxıstan və digər ölkələrin də nümayəndələrinin iştirak etdiyi seminarda zəlzələ zonasında təcili tibbi yardım qruplarının fəaliyyəti, təminatı, göstərdikləri tibbi xidmətin həcmi, Türkiyənin Səhiyyə



Nazirliyi ilə koordinasiyası və digər məsələlər müzakirə olunub, uğurlu məqamlar və çatışmazlıqlar qeyd olunaraq qarşılıqlı fəaliyyətin əhəmiyyəti vurğulanıb.

Seminarda Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin tibb heyətinin və Kahramanmaraş şəhərində qurulmuş 2 mobil səhra hospitalının fəaliyyəti yüksək qiymətləndirilərək Ümumdünya Səhiyyə Təşkilatı və Türkiyə Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təşəkkür elan edilib.

Tədbirin sonunda FHN-in əməkdaşlarına xatirə plaketi təqdim edilib.

## 23 iyun dövlət qulluqçularının peşə bayramıdır

# Dəyərlərə əsaslanan dövlət qulluğu sistemi və Azərbaycanın innovativ inkişafda dünya liderliyi

*Əvvəli 1-ci səh.*

44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə yalnız hərbi quruculuq sahəsində uğurlu fəaliyyətin nəticəsi deyil. Hərbi sahədə həyata keçirilən məqsədyönlü və ardıcıl siyasət ölkənin təhlükəsizliyi üçün də həlledici əhəmiyyət daşıyır. Lakin təhlükəsizlik, o cümlədən hərbi təhlükəsizlik ordu quruculuğu, müvafiq logistika tədbirləri ilə məhdudlaşmır. Hərbdə uğur və müharibənin fəsadlarının sürətli və səmərəli şəkildə aradan qaldırılması ilk növbədə ölkənin iqtisadi, sosial, humanitar və mənəvi durumundan asılıdır və bu sahələrin yüksək səviyyədə olması təhlükəsizliyin və uğurlu inkişafın vacib şərtidir.

Hazırda işğaldan azad edilmiş ərazilərdə bərpa işləri böyük sürətlə və ən yüksək müasir standartlar nəzərə alınmaqla həyata keçirilir. İlk növbədə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi işləri, tikinti, köçkün və qaçqınların doğma yurdlarına Böyük qayıdışına yönəlik digər tədbirlər reallaşdırılır. Bu yerdə qeyd edək ki, azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işlərinin geniş miqyası, Azərbaycanın bu tədbirləri faktiki olaraq öz imkanları hesabına həyata keçirməsi ölkənin uğurlu idarə edilməsinin ən bariz göstəricisidir.

Ümumiyyətlə, Prezident, Ali Baş Komandan İlham Əliyevin siyasi, iqtisadi, sosial, ekoloji və hərbi təhlükəsizlik sahələrində həyata keçirdiyi strategiya unikaldır və ölkənin hərtərəfli, sürətli və innovativ inkişafını təmin edir. BMT, Dünya Bankı, Davos Beynəlxalq İqtisadi Forumu və digər nüfuzlu beynəlxalq qurumlar tərəfindən hazırlanmış rəsmi hesabatlarda da göstərilir ki, Azərbaycanın müxtəlif sahələrdə qazandığı nailiyyətlər ölkədə həyata keçirilən islahatların və səmərəli idarəetmənin nəticəsidir. Bu, ilk növbədə daxili və xarici siyasətin həyata keçirilməsi prosesində Prezident İlham Əliyev tərəfindən işlənilmiş uzunmüddətli və elmə əsaslanan proqnozlar, onların həyata keçirilməsi üçün strateji planlaşdırma, innovativ dövlət idarəçilik texnologiyalarının tətbiqi və səmərəli fəaliyyət göstərən dövlət qulluğu sisteminin formalaşdırılması sayəsində mümkün olmuşdur. Müasir, qabaqlayıcı tələblərə cavab verən və daim təkmilləşən dövlət qulluğu sisteminin təşkili, fasiləsiz təhsil şəraitində səmərəli fəaliyyət göstərən kadr potensialının formalaşdırılması isə bu texnologiyaların vacib istiqamətidir. Bu yerdə qeyd etmək lazımdır ki, ölkəmizdə sosial inkişafa yönəlik mühitin qurulmasında, bütün vətəndaşlarımızın təhsil və sağlamlıq proqramlarına cəlb edilməsində dövlət-vətəndaş cəmiyyəti tərəfdaşlığının örnək nümunəsi kimi ortaya çıxmasında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolu var.

Birinci vitse-prezident institutunun yaradılması, bu vəzifədə Mehriban xanım Əliyevanın uğurlu fəaliyyəti Prezident İlham Əliyev tərəfindən nəzəri baxımdan işlənilmiş və praktikada uğurla sınaqdan keçmiş dövlət idarəçiliyində və dövlət qulluğunun təşkilində yüksək səmərəyə malik olan yeni sinergetik texnologiyaların bir istiqamətidir. Ölkəmizdə Prezident İlham Əliyevin təşəbbüsü ilə dünyada ilk dəfə olaraq dövlət idarəçiliyində və dövlət qulluğunun təşkilində tətbiq edilən sinergetik texnologiyalar ilə yanaşı, komplementar, kompensasion və komplimentar yanaşmaların səfərbər edilməsi Azərbaycanın iqtisadi, sosial, humanitar inkişafı, ümumi və hərbi təhlükəsizliyin təmin olunmasının vacib şərtidir. Ölkəmizin beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirilən sürətli və innovativ inkişafının əsasında dövlət idarəçiliyi və dövlət qulluğunun təşkilində tətbiq edilən yeni texnologiyalar durur. Bu fakt həmçinin Davosda Dünya İqtisadi Forumu tərəfindən yayımlanan xüsusi qlobal hesabatlarda da əks olunub. Həmin beynəlxalq quruma görə, Azərbaycan Respublikası qlobal miqyasda davamlı inkişaf edən inklüziv cəmiyyətin qurulması üçün iqtisadi imkanlardan ən səmərəli istifadə edən ölkədir.

Azərbaycanın inkişafı son iki onillikdə artan innovativliyi ilə fərqlənir. Bu, onunla əlaqədardır ki, ölkədə hər zaman yeni, daha yüksək iqtisadi və sosial məqsədlər formalaşır və həmin məqsədlərə nail olmaq üçün siyasət müəyyənləşdirilir və ardıcıl həyata keçirilir. Məsələn, Prezident İlham Əliyev tərəfindən 2 fevral 2021-ci ildə imzalanmış sərəncam ilə yeni, yüksək məqsədlərə nail olunması planlaşdırılmış, ölkənin 2030-ci il üçün prioritetləri müəyyən edilmişdir. Planlaşdırılan fəaliyyət insan potensialına və innovasiyalara əsaslanan və davamlı inkişaf edən dayanıqlı rəqabətqabiliyyətli iqtisadiyyatın qurulmasını nəzərdə tutur. Bunun sayəsində dünyada müasir inkişafın əsas prioriteti sayılan inklüziv cəmiyyətin formalaşdırılması əsas götürülür.

Ölkəmizdə inklüziv inkişaf edən cəmiyyətin formalaşdırılmasının prioritet kimi müəyyən edilməsi və 2030-ci il üçün bu məqsədə nail olunmasına dair tədbirlərin hədəflənməsi təsadüfi deyil. Beynəlxalq dəyərləndirmələrə əsasən, Azərbaycan davamlı inkişaf və inklüziv cəmiyyətin qurulmasının optimal planlaşdırılması və idarəedilməsi sahəsində dünya liderdir. Məlum olduğu kimi, dünya ölkələrində inklüziv inkişafın vəziyyətinin qiymətləndirilməsi üçün inklüziv inkişaf indeksi hesablanır. Alınmış nəticələr əsasında müqayisələr aparılır və ölkənin dünyada inklüziv inkişafın səviyyəsinə görə reytinqi müəyyən edilir. Davos İqtisadi Forumunun hesabatlarına əsasən, Azərbaycanın inklüziv inkişaf indeksi 4,69-dur. Bu göstərici ilə Azərbaycan inklüziv inkişafın vəziyyətinə görə dünyada 25-ci, keçid iqtisadiyyatı olan ölkələr arasında isə 3-cü yerdədir. Ölkəmiz həm də inklüziv cəmiyyətin qurulması naminə iqtisadi imkanları və mövcud insan potensialını ən səmərəli idarə edən ölkədir və bu sahədə dünyada birincidir.

Bir qayda olaraq, ölkəmizin iqtisadi inkişafa, hər nəfərə düşən ÜDM-nin dəyərinə görə dünyada və ya ölkələr qrupunda tutduğu yer inklüziv inkişaf üzrə tutduğu yer ilə ya eynidir, ya da az fərqlidir. Məsələn, Fransa hər nəfərə düşən ÜDM-nin dəyərinə görə hesabat tərtib edilən ildə çox yüksək inkişafa nail olmuş ölkələr arasında 19-cu yerdə idi. O, eyni zamanda inklüziv inkişaf göstəricilərinə görə 19-cu olmuşdu. Bununla yanaşı, elə ölkələr var ki, onların iqtisadi imkanları inklüziv inkişaf indeksinin müvafiq səviyyədə olmasını təmin etmir. Məsələn, bir sıra ölkələrdə inklüziv inkişafın səviyyəsi onların iqtisadi imkanlarından aşağıdır. Bu ölkələr



sırasına Misir, ABŞ, Kanada, Hindistan, Polşa, İtaliya və digərləri daxildir.

Ancaq elə ölkələr də var ki, onların inklüziv inkişaf indeksinə görə beynəlxalq reytinqi hər nəfərə düşən gəlirə görə reytinqindən üstündür. Məsələn, Davos Dünya İqtisadi Forumunun hesabatlarına əsasən, Azərbaycan iqtisadi göstəricilərinə görə (hər nəfərə düşən ÜDM-nin dəyəri, ABŞ dolları, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla) keçid iqtisadiyyatına malik ölkələr arasında 26-cı yerdədir. Eyni hesabatdan aydın olur `ki, inklüziv inkişaf göstəricisinə görə Azərbaycan bu ölkələr qrupunda 3-cüdür. Bu, onu göstərir ki, ölkəmiz mövcud iqtisadi imkanları və insan potensialının daha optimal idarəedilməsi nəticəsində inklüziv inkişaf edən cəmiyyətin qurulması sahəsində daha uğurludur və bu iki göstərici arasında fərq +23-ə bərabərdir. Eyni zamanda Azərbaycan dünya ölkələri arasında hər nəfərə düşən ÜDM-nin (ABŞ dolları, alıcılıq qabiliyyəti pariteti ilə) dəyərinə görə 83-cü, inklüziv inkişafı səciyyələndirən indeksə görə 25-ci yerdədir. Bu isə o deməkdir ki, inklüziv cəmiyyətin qurulması istiqamətində qazandığı nailiyyətlərə görə ölkəmiz praktiki olaraq iqtisadiyyatda çox yüksək nəticələr əldə etmiş lider dövlətlər sırasındadır. Nəzərə alınsa ki, Azərbaycan dünya reytinqində 83-cü iqtisadi imkana malikdir və qlobal miqyasda inklüziv inkişaf sahəsində 25-ci yeri qazana bilib, aydın olur ki, əldə edilmiş göstərici ölkədə maliyyə və insan resurslarının innovativ texnologiyalara əsaslanaraq ən optimal idarə edilməsinin nəticəsidir. Bu, Prezident İlham Əliyevin 2003-cü ildə irəli sürdüyü "qara qızıl"ın (neft-qaz sənayesindən əldə edilən gəlirlərin) insan potensialının inkişafına və bu potensialın iqtisadiyyatda insan kapitalına çevrilməsi konsepsiyasının məntiqi yekunudur. Bu gün ölkənin səmərəli idarə edildiyini sübut etmək üçün digər fakt: inklüziv inkişafın hər vahidini əldə etmək üçün Azərbaycanda hər nəfərə alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla 3840 dollar kifayət etdiyi halda, ABŞ-də eyni nəticəni əldə etmək üçün 13617, Fransada isə 8978 dollar sərf olunur.

Azərbaycanın qazandığı bu nailiyyətlərin əsasında ilk növbədə Prezident İlham Əliyevin uzaqgörənliyi, strateji düşünmək qabiliyyəti və bunun sayəsində perspektiv istiqamətləri daha öncədən proqnozlaşdırmaq bacarığı dayanır. Misal olaraq göstərə bilərik ki, bu gün qlobal səviyyədə prioritetə çevrilən "yaşıl enerji" növlərinin inkişafı ilə bağlı Prezident hələ 2014-cü ildə təşəbbüslə çıxış etmişdi. Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində Prezident demişdir: "Günəş, külək enerji növlərinin inkişafı ilə bağlı işlər daha da sürətlə getməlidir. Bu imkanlardan istifadə etməmək, əlbəttə ki, böyük səhv olardı".

Bütövlükdə dövlətin effektiv fəaliyyəti iki əsas amillə əlaqədardır. Bunlardan birincisi dövlət idarəçilik strategiyası, ikincisi isə bu strategiyanı həyata keçirən dövlət qulluğu sisteminin formalaşdırılması və dövlət qulluqçularının müasir bilik və bacarıq səviyyələrinin yüksəldilməsidir. Rəqabətqabiliyyətli insan potensialının formalaşması innovativ inkişafın əsas hərəkətverici amili kimi qəbul etmiş Azərbaycanda bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Rəqabətqabiliyyətli insan potensialının formalaşması üçün bilik və bacarıqların həlledici amil olduğunu nəzərə alaraq, ölkədə orta, ali və müasir peşə təsili müəssisələrinin bazası əsaslı dərəcədə təkmilləşdirilmişdir. Bütün bölgələrdə yeni məktəblərin yaradılması və yenidənqurulması prosesi davam edir, tədris proqramı, dərsliklər, dərs vəsaitləri yeniləşir və müasirləşdirilir.

Məlumdur ki, dövlət idarəçiliyi sahəsində müasir və daim yenilənən bilik və bacarığa malik olan kadr potensialının formalaşdırılması və optimal idarəedilməsi, bu sahədə elmi araşdırmaların aparılması məqsədilə Heydər Əliyevin 1999-cu ildə imzaladığı fərman əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası təsis edilmişdir. Bu yeni təhsil və elm ocağına dövlət qulluğu üçün kadrların hazırlanması və təkmilləşdirilməsi, daim baş verən dəyişikliklər şəraitində dövlət idarəçiliyi sisteminin modernləşdirilməsinə dair tövsiyələrin işlənməsi sahəsində aparıcı elm, təhsil və informasiya mərkəzi statusu verilmişdir. Dövlət idarəçiliyi və dövlət qulluğu sahələrində innovativ islahatlar aparan Prezident İlham Əliyevin 2014-cü və 2017-ci illərdə imzaladığı sərəncamlarla isə Dövlət İdarəçilik Akademiyasının ölkənin bu sahədə aparıcı təhsil, elmi-analitik və informasiya mərkəzi kimi mövcud statusu xeyli genişləndirilmişdir. Bu, təbiidir. Çünki hələ 2003-cü ildə Prezident İlham Əliyev Cenevrədə 175 ölkənin iştirakı ilə keçirilən Dünya Sammitində ölkənin inkişaf konsepsiyasının əsasında "qara qızıl"ın insan potensialının (sağlamlıq, bilik və bacarıq) inkişafına və bu potensialın iqtisadiyyatda insan kapitalına çevrilməsi konsepsiyasının durduğunu bəyan etmişdi.

Amma dövlət idarəçiliyi sahəsində fəaliyyətin səmərəliliyi yalnız dövlət qulluqçularının, dövlət qulluğunun xüsusi növlərində çalışanların, dövlətin digər işçilərinin hazırlıq səviyyəsindən asılı deyil. Bu qrupa aid olan heyətin, qərar qəbul və icra edənlərin bilik və bacarığının davamlı inkişafı inklüziv cəmiyyətin formalaşmasının vacib şərti olsa da, bu istiqamətdə yüksək nailiyyətlərin əldə edilməsi baxımından təhsil sisteminin digər səviyyələrində də müvafiq tədris proqramlarının işlənilməsi və tətbiq edilməsi olduqca əhəmiyyətlidir. Davamlı inkişaf edən inklüziv cəmiyyətin qurulması bu sahədə əhalinin innovativ dəyişikliklərə hazır olmasını və daim məlumatlandırılmasını tələb edir.

Prezident İlham Əliyevin dövlət idarəçiliyində özünün də tətbiq etdiyi innovativ texnologiyalarla bağlı tələblərini təmin etmək məqsədilə Dövlət İdarəçilik Akademiyasında təhsil və təlimlər kompleks şəkildə həyata keçirilir. Dövlət idarəçiliyi sahəsində insan potensialının formalaşmasını və inkişaf prosesi üçün müvafiq mühitin yaradılmasını nəzərdə tutan kompleksin mərkəzində Prezident İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf hədəflərinin və tətbiq etdiyi yeni idarəçilik texnologiyalarının elmi əsaslandırılması dayanır. Təkcə 2022-ci ildə Dövlət İdarəçilik Akademiyasında 4000-ə yaxın dövlət qulluqçusu təlim və yenidən hazırlıq keçmişdir. Bu, Prezident İlham Əliyevin 30 oktyabr 2018-ci il sərəncamı ilə təsdiqlədiyi "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda nəzərdə tutulduğundan yüksək rəqəmdir. Onu da qeyd edək ki, dövlət qulluqçularının təlim-tədris prosesi dövlət başçısı tərəfindən növbəti onillik üçün ölkənin sosial-iqtisadi inkişafına dair müəyyən olunan beş milli prioritetin reallaşdırılmasından irəli gələn öhdəliklərin icrası və qarşıda duran məqsədlərin təmin edilməsinə dəstək istiqamətində qurulub.

Dövlət idarəçiliyi və dövlət qulluğunun təşkilinin yüksək səviyyədə təmin edilməsi, bu prosesin daim təkmilləşdirilməsi üçün bu sahəyə aid olan müasir tədris və təlim vasitələrinin hazırlanması və geniş yayılması da vacib şərtdir. Bu, xüsusən ölkənin inkişafında yeni məqsədlərə nail olmaq baxımından əhəmiyyətlidir. Prezident İlham Əliyevin 2 fevral 2021-ci ildə imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında sərəncam çərçivəsində Azərbaycanda insan potensialına əsaslanan iqtisadi inkişafın davamlılığı, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışın təmin edilməsi, inklüziv cəmiyyətin qurulması və s. nəzərdə tutulub. Dövlət İdarəçilik Akademiyası bu istiqamətlərdə bilik və bacarıqların formalaşdırılmasına xidmət edən bir sıra dərsliklər dərc edib. Həmin dərsliklərin bəziləri dünyada bir ilkdir və bu səbəbdən onların ingilis dilində dərc edilmiş versiyası dünyanın ən böyük onlayn ticarət platforması olan Amazonda qlobal miqyasda yayılır. Onlar həmçinin Azərbaycanın son 20 ildə əldə etdiyi nailiyyətlər barədə məlumatların yayılmasında dəyərli vasitədir.

Bu gün Azərbaycanın bütün dünya tərəfindən izlənən yüksəlişi və tərəqqisi, ölkəni idarə edən liderin əzmi və qətiyyəti vurğulamağa əsas verir ki, bu, hələ son deyil və ölkəmiz növbəti illərdə də inkişaf tempini qoruyub saxlayacaq. Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə xalqa müraciətində qeyd etdiyi kimi: "Biz bu gün doğma Qarabağ torpağında, doğma Zəngəzur torpağında dayanmışıq və burada əbədi yaşayacağıq. Azərbaycan xalqı haqlı olaraq qürur hissi ilə yaşayır. Bizim hər birimiz, xaricdə yaşayan azərbaycanlılar da daxil olmaq şərtilə iki il yarım müddət ərzində qürur hissi ilə yaşayırıq. Hər kəsə, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq və ərazi bütövlüyünü öz gücümüzə bərpa edən ölkə kimi bundan sonra da ancaq və ancaq irəliyə gedəcəyik. Necə ki, Vətən müharibəsində 44 gün ərzində irəliyə getmişiksə, müharibə başa çatandan sonra bütün sahələr, bütün istiqamətlər üzrə irəliyə gedirik və gedəcəyik". Əminliklə səsləndirilən və reallığa əsaslanan bu sözləri Azərbaycanın gələcək inkişafının leytmotivi kimi də qəbul etmək olar.

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

# Prezident qayğısının təcəssümü

## Naxçıvanın sosial-iqtisadi inkişafında yeni mərhələ başlayır



**Vətən müharibəsindəki qələbə Azərbaycanın inkişafı ilə bağlı prioritetləri yeni mərhələyə yüksəltmişdir. Təsadüfi deyil ki, möhtərəm Prezident İlham Əliyev "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i 2021-ci ilin fevral ayında imzalamışdır. İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın, iqtisadiyyatın dayanıqlılığının və rəqabətqabiliyyətliliyinin təmin olunması kimi məsələlər bu gün dövlətimizin əsas prioritetləri sırasında yer alır.**

Respublikamızın bütün bölgələri, hər bir şəhər və rayonu kimi, Naxçıvan Muxtar Respublikasının da inkişafı Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzindədir. İyun ayının 5-də dövlət başçısı tərəfindən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq olunması da bunu sübut edir. Bu proqram muxtar respublika ictimaiyyəti tərəfindən təqdir olunur, dərin minnətdarlıq və razılıqla qarşılanır. Çünki sənədin icrası Naxçıvanın yüksəlişinə xidmət edəcək, əhalinin rifahına və məşğulluğun artırılmasına mühüm töhfələr verəcək.

Qeyd etmək istərdim ki, Naxçıvan Muxtar Respublikasının inkişafına xidmət edən hər bir addım, təşəbbüs ilk növbədə xalqımızın Ulu Öndəri Heydər Əliyevin ideyalarının uğurlu davamı, Naxçıvanla bağlı arzularının reallaşmasıdır. Çünki dövlət proqramında da deyildiyi kimi, muxtar respublikanın təqribən yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Hələ sovet hakimiyyəti illərində Heydər Əliyevin sayəsində Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi yaradılmışdır.

Müstəqillik illərində isə Ulu Öndər Heydər Əliyev Naxçıvana qayıtmaqla həm onu Ermənistanın işğalından qorudu, həm də blokada vəziyyətində olan muxtar respublikadakı ağır sosial-iqtisadi vəziyyətin aradan qaldırılması üçün tarixi addımlar atdı. Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda fəaliyyəti dövründə Ermənistan tərəfindən blokada şəraitində olan regionun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və tərəqqisi üçün əhəmiyyətli tədbirlər görülmüş, aqrar islahatlar reallaşdırılmış, infrastrukturun inkişafı istiqamətində mühüm işlər həyata keçirilmişdir. Məhz Ulu Öndərin siyasəti sayəsində bölgənin inkişafının və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələr qurulmuş, sonrakı dövr üçün ölkəmizin bütün regionları kimi, Naxçıvanın da sosial-iqtisadi inkişafında möhkəm bünövrə formalaşdırılmışdır.

Ulu Öndərin müəyyən etdiyi inkişaf strategiyasını layiqincə davam etdirən, onu daha da zənginləşdirən Prezident İlham Əliyev Naxçıvanın inkişafına hər zaman xüsusi qayğı ilə yanaşmışdır. Ötən dövrdə muxtar respublikada sosial-iqtisadi sferada əldə olunmuş hər bir nailiyyət məhz Prezident İlham Əliyevin Naxçıvana olan diqqət və qayğısının, həyata keçirdiyi iqtisadi islahatların nəticəsidir.

Cənab İlham Əliyevin ötən il dekabrın 22-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Fuad Nəcəflini qəbul edərkən verdiyi tapşırıq və tövsiyələr də dövlət başçısının Naxçıvana olan diqqət və qayğısından xəbər verir. Son aylarda muxtar respublikada bütün sahələrdə baş verən dəyişikliklər göstərir ki, dövlət başçısının qarşıya qoyduğu tapşırıq və tövsiyələr layiqincə icra olunur. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" isə bu proseslərə yeni töhfələr verəcək.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialı böyükdür. Belə ki, dövlət proqramında da göstərildiyi kimi, təbii ehtiyatlar və xammal bazasının, bərpaolunan enerji potensialının, turizm imkanlarının mövcudluğu, sahibkarlığın inkişafına, ixracın stimullaşdırılmasına və əlverişli investisiya mühitinin yaradılmasına dövlət dəstəyinin olması, habelə xarici ticarət üçün əlverişli iqtisadi coğrafi mövqedə yerləşməsi, mühüm enerji və nəqliyyat dəhlizlərinə yaxınlıq və beynəlxalq hava limanına malik olması Naxçıvanın sosial-iqtisadi inkişafı ilə bağlı hədəflərin və prioritet istiqamətlərin müəyyənləşdirilməsində mühüm imkanlardan xəbər verir.

Prezident İlham Əliyevin qətiyyətli və müdrik siyasətinin nəticəsi olaraq tezliklə bu imkanların cərgəsinə Zəngəzur dəhlizi də daxil olacaq. Zəngəzur dəhlizi vasitəsilə Orta dəhlizlə logistik bağlantının yaradılması isə Naxçıvanın iqtisadi potensialını daha da gücləndirəcək. Bu imkanlar, əlbəttə ki, muxtar respublikanın kompleks inkişafında, dövlət proqramı ilə qarşıya qoyulmuş məqsədlərə nail olunmasında böyük rol oynayacaq.

Dövlət proqramının həyata keçirilməsinə dair tədbirlər planında 11 prioritet istiqamət müəyyən edilib. Bunlar əlverişli biznes mühitinin yaradılması, ticarətin inkişafı, ixracyönlü sənayenin inkişafı, kənd təsərrüfatı məhsulları istehsalının və emalının inkişafı, turizmin inkişafı, elektrik enerjisi istehsalının və ixracının artırılması, infrastruktur təminatının inkişafı, sosial sektorun inkişafı, insan kapitalının inkişafı, institusional inkişaf və ətraf mühitin mühafizəsinin gücləndirilməsidir. Dövlət proqramının həyata keçirilməsi ilə bağlı icrası planlaşdırılan bütün tədbirlər bu prioritet istiqamətlər üzrə qruplaşdırılmışdır. Belə ki, muxtar respublikanın iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından və tranzit imkanlarından səmərəli istifadə etməklə mövcud çatışmazlıqların aradan qaldırılması və iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı tədbirlər bu prioritet istiqamətlər nəzərə alınmaqla həyata keçiriləcək.

Bu istiqamətlərin hər biri üzrə qarşıya qoyulmuş vəzifələr nəzərdə tutulmuş vaxtda uğurla icra olunacaq və onların hamısı mühüm nəticələrlə əlamətdar olacaq. Dövlət proqramının təsdiqlənməsi Prezident İlham Əliyevin Naxçıvana yüksək diqqət və qayğısının təcəssümüdür və görünən odur ki, muxtar respublikanın sosial-iqtisadi inkişafında yeni mərhələ başlayır.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

# "Chatham House"da Azərbaycan-Ermənistan normallaşma prosesi barədə danışılıb

**İyunun 22-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Krallığa işgüzar səfəri çərçivəsində qabaqcıl beyin mərkəzlərindən biri olan Kral Beynəlxalq Münasibətlər İnstitutunda (Chatham House) təşkil edilmiş "dəyirmi masa" müzakirələrində çıxış edib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Azərbaycan-Birləşmiş Krallıq münasibətləri, qlobal və regional təhlükəsizlik məsələləri, o cümlədən enerji təhlükəsizliyi, Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi, sülh gündəliyi, Ermənistanın sülh prosesinə xələl gətirən hərbi-siyasi təxribatları, mövcud mina təhlükəsi, işğaldan azad edilmiş ərazilərin reabilitasiyası və yenidən qurulması, habelə əhalinin reinteqrasiyası istiqamətində Azərbaycan tərəfindən atılan addımlar və digər məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov tədbir zamanı iştirakçıları maraqlandıran sualları cavablandırıb.

# Ombudsman Ermənistan tərəfindən əsir götürülmüş hərbçilərimizlə bağlı beynəlxalq ictimaiyyətə müraciət etdi

**Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistan tərəfindən əsir götürülmüş və qanunsuz olaraq azadlıqdan məhrum edilmiş hərbi qulluqçularımızın dərhal azad olunması ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət edib.**



Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müraciətdə qeyd edilib ki, cari ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində itkin düşməklə Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan Ordusunun əsgərləri Bəbirov Aqşin Qabil oğlu və Axundov Hüseyn Əhliman oğlu saxta ittihamlarla azadlıqdan məhrum olunublar. Bu müddət ərzində beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn normalarına zidd olaraq onların müxtəlif işgəncələrə və pis rəftara məruz qalmaları Ermənistanın ölkəmizə qarşı etnik nifrət zəminində düşmənçilik siyasəti apardığını bir daha təsdiq edir.

"Bununla əlaqədar dəfələrlə müraciət olunmasına baxmayaraq, Ermənistan hakimiyyəti hərbi qulluqçularımıza qarşı qanunsuz qərarların qəbul edilməsinə rəvac verməklə beynəlxalq hüququn tələblərini növbəti dəfə kobud şəkildə pozub.

Günahsız hərbi qulluqçularımıza münasibətdə qərəzli qərarların qəbul edilməsi və digər bu kimi təxribatçı addımların atılması iki ölkə arasında dayanıqlı sülhün təmin olunması istiqamətində aparılan danışıqları pozmaq məqsədi daşıyır.

Hesab edirik ki, Ermənistanda saxta məhkəmə hökmü ilə tamamilə qanunsuz olaraq azadlıqdan məhrum edilmiş hərbi qulluqçularımız dərhal azad edilməlidirlər.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili olaraq, yenidən beynəlxalq ictimaiyyətə müraciət edərək, əsir götürülməklə qanunsuz həbs olunmuş hərbi qulluqçularımızın tezliklə azad edilməsi üçün təsirli addımların atılmasını qəti şəkildə tələb edirəm", - deyə Səbinə Əliyevanın müraciətində vurğulanıb.

# *XİN:* "Nikol Paşinyanın Laçın yolu ilə bağlı fikirlərini qətiyyətlə rədd edirik"

**"Ermənistanın baş naziri Nikol Paşinyanın hökumətin iyunun 22-dəki iclasında səsləndirdiyi, Azərbaycanın Laçın yolunda guya Beynəlxalq Ədalət Məhkəməsinin qərarına zidd olaraq "qeyri-qanuni blokada" tətbiq etməsinə dair cəfəng fikirlərini qətiyyətlə rədd edirik".**

AZƏRTAC xəbər verir ki, bu, Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Ermənistanın baş nazirinin fikirlərinə dair şərhində yer alıb.

"Ermənistan tərəfinə bir daha xatırladırıq ki, Laçın sərhəd-buraxılış məntəqəsində Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni əsilli sakinlərinin şəffaf və təhlükəsiz şəkildə hər iki istiqamətdə keçidi üçün müvafiq şərait yaradılmasına, məntəqə yaradılandan yüzlərlə erməni sakinin buradan keçməsinə baxmayaraq, məhz iyunun 15-də Ermənistan silahlı qüvvələrinin təxribatı Laçın sərhəd buraxılış məntəqəsindən təhlükəsiz keçidə maneçilik törədib.

Görünən odur ki, Ermənistan tərəfi 2020-ci ildən sonra Laçın yolu vasitəsilə həyata keçirdiyi qeyri-qanuni fəaliyyətdən məhrum olduğu, habelə erməni sakinlərin məntəqədən keçid zamanı Azərbaycan tərəfindən göstərilən müsbət yanaşmadan narahat olduğu üçün bu kimi təxribatlara əl atmaqdadır. Ərazidə "humanitar böhran" olduğu barədə Ermənistan tərəfindən aparılan propaqandanın heç bir əsası yoxdur.

Otuz ilə yaxın işğal dövründə mülki əhalini daim hədəfə alan, bir milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə həyata keçirən, kütləvi qırğınlar törədən, onların torpaqlarına ləyaqətli və təhlükəsiz şəkildə geri dönməsinə hərbi təxribatları ilə maneçilik törədən Ermənistanın Azərbaycanı "etnik təmizləmə" həyata keçirməkdə ittiham etməsi riyakarlıq nümunəsidir.

Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni əsilli sakinləri ilə dialoqunda "beynəlxalq mexanizm"in tətbiq olunmasına və bu çərçivədə erməni əsilli sakinlərin "hüquqları və təhlükəsizliyi" məsələlərinin həll edilməsinə dair çağırışlarla bağlı bir daha vurğulayaq ki, erməni əsilli sakinlərlə dialoq, habelə Azərbaycan ərazisində Azərbaycan qanunları çərçivəsində yaşayan şəxslərin hüquq və azadlıqlarının təmin olunması məsələsi Azərbaycanın daxili işidir. Azərbaycan erməni sakinlərinin reinteqrasiyası istiqamətində müvafiq zəruri tədbirlər həyata keçirməkdə qərarlıdır, bu və digər məsələlərin müzakirəsi məqsədilə erməni sakinlərə ünvanlanmış dəvət hələ də qüvvədədir.

Ermənistanın qeyd edilən məsələdən ənənəvi təcavüz siyasətinin bir elementi kimi manipulyasiya məqsədilə istifadəsi və sülh prosesinə maneçilik törətməsi qəbuledilməzdir.

Ermənistan tərəfindən səsləndirilən və Azərbaycanın suverenliyini hədəf alan bu tipli fikirlər, habelə bölgədə törədilən hərbi təxribatlar bu ölkənin "sülhün bərqərar olması üçün hər cür səy göstərən" tərəf olduğuna dair bəyanatlarının səmimiyyətdən uzaq olduğunu göstərir", - deyə Azərbaycan XİN-in şərhində vurğulanıb.

# Ermənistan müdafiə nazirliyinin yaydığı məlumat tamamilə yalandır, həqiqətə uyğun deyil

İyunun 22-si saat 17:40 radələrində Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Ermənistan silahlı qüvvələrinin Qaraiman yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərinin müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması barədə bu ölkənin müdafiə nazirliyinin yaydığı məlumat tamamilə yalandır, həqiqətə uyğun deyil.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

"Qarşı tərəfin yaydığı bu məlumatı qəti surətdə təkzib edirik",- deyə nazirlikdən bildirilib.

# Ordumuzun bölmələri Ağdərə rayonu istiqamətində atəş açmayıb

Azərbaycan Ordusunun atəşi nəticəsində qanunsuz erməni dəstə üzvünün yaralanması xəbəri yalandır. Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

"İyunun 22-si saat 13:00 radələrində Azərbaycan Ordusunun bölmələrinin Ağdərə rayonu istiqamətində atəş açması nəticəsində qeyri-qanuni erməni silahlı dəstələrinin bir üzvünün yaralanması barədə sorğuya cavab olaraq bildiririk ki, bölmələrimiz qeyd olunan istiqamətdə atəş açmayıb", - məlumatda qeyd edilib.

# Məhkəmə məzhəkəsi

## Ermənistan sülh danışıqlarında razılaşdırılan humanitar məsələlərdən də yayınır, beynəlxalq hüququn tələblərindən də

**Bu ilin aprel ayında Naxçıvanın Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən azan əsgərlərimizi əsir götürən Ermənistan onlara qarşı saxta ittihamlarla cinayət işi açmışdır.**





İyunun 21-də həmin əsgərlərimizdən biri Zəngəzur mis-molibden kombinatının gözətçisini guya qətlə yetirməkdə "təqsirləndirilərək" 20 il, digər əsgərimiz Aqşin Bəbirov isə başqa "ittiham"la 11 il 6 ay azadlıqdan məhrum edilmişlər.

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində aparılan danışıqlarda humanitar məsələlər mühüm rol oynasa da, Hayastan öz xislətindən əl çəkmir. Üçtərəfli Bəyanata əsasən də hər iki tərəf qarşılıqlı olaraq hərbi əsirləri geri qaytarmalıdırlar. Üzərinə götürdüyü öhdəliklərə sadiq qalan Azərbaycan müharibədən sonra bütün erməni hərbi əsirləri Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə geri qaytarıb. Sonrakı mərhələlərdə də belə humanist addımlar çox atılıb.

İki ölkə arasında münasibətlərin yaxşılaşmasında humanitar məsələlərin də mühüm rol oynadığı nəzərə alınaraq Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən üçtərəfli görüşlərdə bu məsələ hər dəfə müzakirə olunub. Mayın 14-də Brüsseldə baş tutan 6-cı görüşün yekunlarına dair mətbuata açıqlama verən Şarl Mişel qeyd etmişdir ki, qarşıdakı həftələr ərzində saxlanılan daha çox şəxs azad ediləcək: "Öz tərəfimdən onu vurğuladım ki, sadəcə, yolunu azan və qarşı tərəfə keçən əsgərlərin sürətli prosedur vasitəsilə azad olunmalarına dair qarşılıqlı anlaşmanın təmin olunması davam etdirilməlidir. Biz həmçinin itkin düşmüş şəxslərin taleyi ilə bağlı və minaların təmizlənməsi işinin sürətləndirilməsinin vacibliyinə dair müzakirələr apardıq". Həmin görüşdən 1 aydan çox vaxt keçməsinə baxmayaraq, əlverişsiz hava şəraitində yolu azaraq qarşı tərəfə keçən əsgərlərimiz hələ də geri qaytarılmayıb.

### "Əsir düşən əsgərlərimizə qarşı davranışlar Ermənistanın düşmən mövqeyini saxladığını bir daha nümayiş etdirir"

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında deyib ki, aprel ayında əlverişsiz hava şəraiti ilə əlaqədar yolu azan iki əsgərimizin əsir düşməsi və onlara qarşı qeyri-insani davranışlar Ermənistanın Azərbaycan xalqına və dövlətinə qarşı düşmənçilik hisslərini saxladığını bir daha nümayiş etdirir.

Deputatın sözlərinə görə, Ermənistanın davranışları əsasən imitasiya xarakterlidir: "Yəni onlar özlərini sülh tərəfdarı kimi göstərib, davranışları ilə ilk fürsətdə qisas almaq istədiklərini nümayiş etdirirlər. Azərbaycan tərəfi təbii ki, Ermənistanın bu riyakar mövqeyinə yaxşı bələddir. Odur ki, bütün platformalarda bununla bağlı öz mövqeyini bəyan edir. Ermənistan tərəfi isə həmişə olduğu kimi, sülhə hazır olduğunu bildirsə də, əməldə bunun əksini edir".

2020-ci il 10 noyabr üçtərəfli Bəyanatın imzalanmasından sonra həmin ayın 25-də Ermənistanın diversiya qrupunun ərazilərimizdə təxribat törətməyə cəhd etdiyini xatırladan E.Mirbəşiroğlu bildirib ki, onlar Azərbaycan tərəfindən zərərsizləşdirilərək saxlanılıblar. Bu səbəbdən onlar hərbi əsir sayılmırlar.

Deputat vurğulayıb ki, bizim əsgərlərimizlə bağlı vəziyyət isə başqadır. Onların Ermənistana qarşı hər hansı məqsədi olmayıb, sadəcə, azaraq qarşı tərəfə keçiblər və əsir götürülüblər. "Təbii ki, görüşlər zamanı bu, müzakirə predmetidir və bundan sonra da olacaq. Azərbaycan tərəfi öz əsgərlərinin əsirlikdən azad olunması istiqamətində nəticəyə yönəlik addımlarını davam etdirəcək və nəticə də əldə edəcək. Bununla belə, Ermənistanın davranışları daha ehtiyatlı olmağımız üçün çağırışdır. Bu onu göstərir ki, biz Ermənistanla münasibətlərimizi normallaşdırmağa çalışsaq da, onlar bizə qarşı düşmənçilik mövqelərini saxlayırlar. Əsirlərimizə münasibətdə sərgilədikləri davranışlar bunu bir daha nümayiş etdirir", - deyə o əlavə edib.

### "Ermənistanın "məhkəmə prosesi" bəşəri ideallara zidd davranışdır"

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qeyd edib ki, əsir əsgərimiz Axundov Hüseyn Əhliman oğluna qarşı Ermənistanın qurama "məhkəmə prosesi" və onun 20 il azadlıqdan məhrum edilməsi məhkəmə saxtakarlığıdır və dərhal beynəlxalq ictimaiyyət tərəfindən pislənilməlidir.

Deputat bildirib ki, Hüseyn də, onunla eyni vaxtda, eyni səbəbdən əsir götürülmüş və 11 il 6 ay azadlıqdan məhrum edilmiş digər əsgərimiz Aqşin Bəbirov da hansısa real cinayət əməlinə yox, məhz azərbaycanlı olduğuna görə cəzalandırılıblar: "Cəza təyin edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar və s. nəzərə alınmalıdır. Bu davranış BMT-nin "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyası və onun məqsədlərinə zidd olmaqla müharibə cinayətlərinin, konkret desək, beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il üçüncü Cenevrə Konvensiyasının kobud pozuntusudur. Beynəlxalq ictimaiyyətin bu məsələni görməzdən gəlməsi hüquqa və bəşəri ideallara zidd davranışa ortaq olmaq deməkdir".

Deputat vurğulayıb ki, əsirlikdəki hər iki əsgərimizin qəddar fiziki işgəncələrə məruz qalmasına dair kifayət qədər təkzibolunmaz faktlar mövcuddur. Bu və daha öncə başa çatmış qurama "məhkəmə prosesi" də məhz həmin vəhşiliklərin "hüquq" müstəvisində davamıdır. Ermənistan qanunsuz və əsassız məhkəmə prosesi ilə, o cümlədən Hüseyn Axundova 20 il azadlıqdan məhrum edilməsi barədə qondarma "qərar" elan etməklə mənəvi və psixoloji işgəncələri davam etdirdiyini, humanitar hüququn pozuntusunu ehtiva edən cinayətlərin arxasında məhz dövlət olaraq özünün durduğunu etiraf etmiş olur.

B.Məhərrəmovun fikrincə, əgər İrəvan 18-20 yaşlı bu iki gənci hansısa, xüsusilə ağır cinayətdə təqsirləndirirsə, bu, ciddi araşdırma tələb edən mürəkkəb proses olmalı, iş obyektiv, tam və hərtərəfli aparılmalı idi. Heç bir prosessual qaydaya, heç bir hüquqi tələbə məhəl qoymadan tələsik Aqşin üçün 15-20 gün, Hüseyn üçün isə ay yarım ərzində məhkəmə təşkil edərək bir neçə iclasda "qəti qənaət"ə gəlinməsi bu məhkəmənin qurama olduğunu bir daha sübut edir. "Hər kəsə aydındır ki, Ermənistan hüquq sisteminə görə Aqşin Bəbirov və Hüseyn Axundovun yeganə təqsiri onların azərbaycanlı olmasıdır. Dünyanın gözü önündə, Xocalı, Qaradağlı, Ballıqaya, Başlıbel kimi kütləvi qırğınlar törətmiş, Gəncəni, Tərtəri, Bərdəni raket atəşinə tutub mülki insanları hədəfə alan, beynəlxalq yarışda bayrağımızın yandırılmasını təşkil edən bir dövlət azərbaycanlı hərbçilərə loyal yanaşa bilməzdi. Baxmayaraq ki, müharibə zamanı mühasirədə olan 30 min erməni əsgərini son nəfərinə kimi məhv edə bilərdik. Yaxud sonrakı dövrlərdə dəfələrlə erməni əsirlər İrəvana qaytarılıb. Sonuncu dəfə yolu azaraq sərhədi keçmiş 10-dan artıq hərbçini heç bir şərt irəli sürmədən dərhal geri qaytarmaqla Azərbaycan xoş niyyət ifadə etmişdir", - deyə deputat əlavə edib.

B.Məhərrəmov bildirib ki, Ermənistan son davranışları ilə bölgədə barışıq və etimad yaradılması tədbirlərində maraqlı olmadığını, əksinə, azərbaycanlılara nifrət, ərazilərimizə isə təcavüzkar iddianın hələ də İrəvanın dövlət gündəliyinin vacib tərkib hissəsi olduğunu bir daha göstərir.

Deputat qeyd edib ki, qalib Azərbaycan dövləti susmaq niyyətində deyil, İrəvan layiq olduğu cavabı alacaq, Bu dövlət və onun Müzəffər Lideri İlham Əliyev hərbçilərini Ermənistanın əlində qoymayacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın dövlət orqanlarının rəsmiləri NATO-nun mənzil-qərargahında olublar

**İyunun 22-də Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarının mətbuat və ictimaiyyətlə əlaqələrə cavabdeh nümayəndələrindən ibarət heyət NATO-nun mənzil-qərargahında olublar.**

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyətinin üzvləri NATO-nun müxtəlif strukturlarının ictimai diplomatiya və strateji kommunikasiyalar, dezinformasiyaya qarşı mübarizə sahələrində təcrübəsi və yanaşmaları ilə tanış olacaq, sosial media, həmçinin media məkanında texnoloji yeniliklər və innovativ üsulların tətbiqi, bu kimi digər mövzulara həsr olunan brifinqdə və "dəyirmi masa"da iştirak edəcək.



# Müharibə ilə əlaqədar əlilliyi olan şəxslər yüksək texnologiyalı xüsusi idman protezləri ilə təmin olunacaq

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı xüsusi idman protezləri ilə də təmin olunması planlaşdırılır.**

## Bununla bağlı Danimarka şirkətinin nümayəndələri bir qrup müharibə veteranımızın iştirakı ilə qaçış protezlərini sınaqdan keçirib

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bununla əlaqədar Danimarkanın "Levitate" şirkətinin Türkiyə və Azərbaycan üzrə təmsilçisi olan "Bionic Center Prosthetics Orthotics" tərəfindən bir qrup müharibə ilə əlaqədar əlilliyi olan şəxsin iştirakı ilə xüsusi idman protezlərinin sınağı keçirilib. Sınaq işləri müsbət nəticələnib və müharibə veteranları həmin protezlərin idmanla məşğul olmaq üçün uyğun, etibarlı və rahat olduğunu bildiriblər.

Bundan əvvəlki mərhələdə 2020-ci ilin dekabr ayından bəri nazirlik tərəfindən müharibə ilə əlaqədar əlilliyi olan 420 şəxs 438 ədəd yüksək texnologiyalı müasir protezlə təmin edilib. Elektron diz oynaqları ilə təchiz olunan yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir.

Xüsusi idman protezləri isə yüksək texnologiyalı protezlərə quraşdırılmaqla müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin qaçış və digər bir çox idman oyunlarında daha sərbəst və aktiv şəkildə, rahat hərəkətlər etməsinə şərait yaradacaq.

Gələn ildən aktiv həyat sürən amputantların mərhələli şəkildə idman protezləri ilə təminatı işlərinə başlanılması nəzərdə tutulur.

# Laçın şəhərində rayon prokurorluğunun inzibati binası istifadəyə verilib

**İyunun 22-də Laçın şəhərində rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib.**




Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, açılış mərasimində baş prokuror Kamran Əliyev, Baş Prokurorluğun rəhbər heyəti, eləcə də prokurorluğun veteranları iştirak ediblər.

Əvvəlcə mərasim iştirakçıları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri düzərək onun unudulmaz xatirəsini dərin ehtiramla yad ediblər.

Tədbir iştirakçılarına məlumat verilib ki, inzibati binada prokuror, prokuror köməkçiləri və müstəntiqlər üçün otaqlar, dəftərxana və arxiv yaradılıb.

Qeyd edilib ki, bina bütün zəruri avadanlıq, kompüter sistemi, kommunikasiyalar və mühəndis qurğuları ilə təchiz edilib, mebel və digər inventarlarla təmin olunub.

Laçın Rayon Prokurorluğunun yeni inzibati binasında yaradılan şəraitlə tanış olan baş prokuror kollektivə uğurlar arzulayıb.

Baş prokuror bildirib ki, Laçın Rayon Prokurorluğunun Laçın şəhərində inzibati binasının açılışı prokurorluq orqanlarının tarixində mühüm günlərdən biri olmaqla, prokurorluq işçisi kimi hər kəsi sevindirir və prokurorluq orqanlarının tarixinə qızıl hərflərlə yazılacaq.

Qeyd olunub ki, inzibati binanın açılışı edilən ilk dövlət orqanlarından biri olması, prokurorluq orqanlarının fəaliyyəti üçün yaradılmış yüksək şərait prokurorluq orqanlarının dövlət orqanları sistemində yüksək yerini göstərməklə, həm də dövlətimizin başçısı tərəfindən prokurorluğa göstərilən etimad və qayğının sübutudur.

Diqqətə çatdırılıb ki, prokurorluq orqanlarının ənənəvi tarixi fəaliyyəti, dövlət başçısının həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə sadiqliyi, bu siyasətə yüksək dəstəyi əminlik yaradır ki, prokurorluq orqanları işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Laçın rayonunda hüquq qaydasının təmin edilməsi və möhkəmləndirilməsi, insan və vətəndaşların hüquq və azadlıqlarının qorunması, cinayətkarlıqla mübarizə üzrə digər orqanlarla əlaqəli şəkildə fəaliyyətini bundan sonra da yüksək səviyyədə yerinə yetirməklə, göstərilən etimadı daha da layiqincə doğrultmağa, qarşıya qoyulmuş vəzifələrin öhdəsindən tam şəkildə gəlməyə davam edəcək.

Prokurorluq əməkdaşlarının xidmətlərinin daha səmərəli və peşəkar təşkil edilməsi üçün yaradılan yüksək şəraitə, eləcə də müasir maddi-texniki təminata və təchizata görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq ifadə olunub.

# Dövlət Təhlükəsizliyi Xidməti kompleks istintaq-əməliyyat tədbirlərini davam etdirir

## Xarici ölkə ərazisində qanunsuz silahlı birləşmələrə qoşulan Azərbaycan vətəndaşları həbs ediliblər




Dövlət Təhlükəsizliyi Xidmətində aparılmış araşdırmalar nəticəsində Azərbaycan Respublikasının vətəndaşlarından ibarət, ölkə hüdudlarından kənarda terror aktlarının törədilməsi ilə müşayiət olunan, dini düşmənçilik, dini radikalizm və dini fanatizm zəminində aparılan silahlı münaqişələrdə iştirak etmək məqsədilə qeyri-leqal yollarla Suriya Ərəb Respublikasının ərazisinə keçdikdən sonra həmin dövlətin İdlib şəhərində xüsusi hazırlıq düşərgəsində təlimlərə cəlb olunaraq müxtəlif növ odlu silahlardan istifadə qaydalarına yiyələnmiş, "Taifatul Mansura" adlı qanunsuz silahlı dəstənin tərkibində döyüşlərdə iştirak etmiş sabit qrupun üzvləri müəyyən olunub və barələrində beynəlxalq axtarış elan edilib.

Bu barədə AZƏRTAC-a Dövlət Təhlükəsizliyi Xidmətindən məlumat verilib. Bildirilib ki, başlanılmış cinayət işi üzrə həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə yuxarıda qeyd olunan cinayət əməllərini törətmiş 13 nəfər Azərbaycan Respublikası vətəndaşının - Abdullayev Şəmil Töhüd oğlu, Ağamətov Murad Əlibala oğlu, Quliyev Murad Firudin oğlu, Rüstəmov Fərhad İsə oğlu, Sultanov Sultan İdris oğlu, Hüseynov Nəcməddin Nəzir oğlu, Mahmudov Hikmət Sahib oğlu, Əliyev Mais Telman oğlu, İsmayılov İsmayıl Aydın oğlu, Babayev Şəhriyar Rahim oğlu, Muradov Hacı Arif oğlu, Baxışov Əlövsər Əlisafa oğlu və Əsədov İntiqam Şirin oğlunun xarici ölkə ərazisində gizləndikləri yerlər müəyyənləşdirilib və onlar beynəlxalq axtarışa dair qarşılıqlı hüquqi yardım proseduru çərçivəsində müvafiq tədbirlərlə saxlanılaraq Azərbaycan Respublikasına gətiriliblər.

Sözügedən şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 283-1.3-cü (Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədilə sabit qruplar yaratma, həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunaraq, məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Hazırda kompleks istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Baş prokuror Laçın şəhərində əməliyyat müşavirəsi keçirib

**Laçın Rayon Prokurorluğunun yeni inzibati binasının açılış mərasimindən sonra Baş Prokurorluğun rəhbərliyinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov və işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən tabe rayon və ərazi hərbi prokurorlarının iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.**



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müşavirədə açılış nitqi ilə çıxış edən baş prokuror Kamran Əliyev zəruri tapşırıq və göstərişlərini verib.

Baş prokuror bildirib ki, Laçın şəhəri işğal edildikdən sonra 2022-ci il 26 avqust tarixdə Azərbaycan Respublikasının nəzarətinə verilənédək Ermənistan Respublikasının aidiyyəti dövlət orqanları və orada qanunsuz məskunlaşdırılmış erməni milliyyətindən olan şəxslər tərəfindən həmin şəhərdə yerləşən istismara yararlı vəziyyətdə olmuş 2020 fərdi yaşayış evindən 1511-i qəsdən tamamilə dağıdılaraq məhv edilib və istismara yararsız vəziyyətə salınıb.

Qeyd olunub ki, 27 ümumi yaşayış binasından 19-u qəsdən tamamilə dağıdılaraq, məhv edilməklə istismara yararsız vəziyyətə salınıb, 8-nə isə müxtəlif həcmli zərər vurulub. Ümumilikdə 190 inzibati binadan 143-ü qəsdən tamamilə dağıdılaraq məhv edilməklə, istismara yararsız vəziyyətə salınıb, 47-nə isə müxtəlif həcmli zərər vurulub.

Vurğulanıb ki, işğal müddətində Laçın şəhərində yerləşən, Azərbaycan Respublikasının vətəndaşlarına məxsus 509 fərdi yaşayış evlərində yaşamış erməni milliyyətindən olan şəxslər tərəfindən 2022-ci ilin avqust ayında Laçın şəhəri Azərbaycana təhvil verilərkən Ermənistanın aidiyyəti dövlət orqanlarının tapşırığı və xüsusi dəstəyi ilə həmin evlərin divarları, tavanları, döşəmələri, dam örtükləri, qapı və pəncərələri qəsdən sökülərək, habelə yanğınlar törədilərək həmin evlərə müxtəlif həcmli ziyan vurulub, istifadə üçün yararsız vəziyyətə salınıb, eyni əməllər Laçın rayonunun kəndlərində də törədilib.

Qeyd edilən faktlar Baş Prokurorluğun İstintaq idarəsində istintaqı aparılan cinayət işi üzrə mötəbər sübutlarla müəyyən edilib.

# *Baş prokuror:* "İşğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işlərinin miqyasının böyüklüyünün şahidiyik"

**"Torpaqlarımızın işğaldan azad edilməsindən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinə başlanıb, bir sıra beynəlxalq əhəmiyyətli layihələrə start verilib, o cümlədən "ağıllı şəhər və kəndlər"in inşasına başlanıb, enerji infrastrukturu qurulub, Zəngilan, Füzuli və Laçın rayonlarında beynəlxalq aeroportların tikintisinə başlanılıb, bunlardan Füzuli və Zəngilan aeroportlarının tikintisi başa çatdırılaraq açılışları edilib, Laçın aeroportunun isə qısa müddətdə açılışı nəzərdə tutulur".**

AZƏRTAC xəbər verir ki, bunu baş prokuror Kamran Əliyev Laçın şəhərində keçirdiyi əməliyyat müşavirəsində deyib.

Qeyd olunub ki, işğaldan azad edilmiş bütün ərazilərdə davam edən sürətli tikinti-quruculuq işləri Laçın rayonundan da yan keçməyib. Şanlı qələbə nəticəsində azadlığa qovuşmuş digər ərazilərdə olduğu kimi, Laçın rayonuna da həyat yenidən qayıdıb, sürətli quruculuq-bərpa işlərinə başlanıb. Laçın şəhəri qısa müddətdə işğaldan əvvəlki görkəmindən daha yaxşı görkəmə qayıtmağa başlayıb. Burada "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlər yüksək zövq və keyfiyyətlə icra edilir. Bu ərazilərə səfər edərkən aparılan quruculuq işlərinin miqyasının necə böyük olmasının şahidi olmamaq mümkün deyil.

Vurğulanıb ki, Prezident İlham Əliyevin dəfələrlə Laçın rayonuna, o cümlədən Laçın şəhərinə səfər etməsi, aparılan bərpa-quruculuq işləri ilə əyani tanış olması bu bölgənin ölkəmiz üçün böyük önəmini göstərir.

Müşavirədə açılış nitqi ilə çıxış edən baş prokuror Kamran Əliyev zəruri tapşırıq və göstərişlərini də verib.

# Aşkarlanan kütləvi məzarlıqlar qan yaddaşımızdır

*Əvvəli 1-ci səh.*

Lakin işğaldan azad edilən ərazilərimiz erməni terrorçularının basdırdığı minalardan təmizləndikcə həmin dövrdə hayların törətdikləri müharibə cinayətləri də bir-bir üzə çıxır və faşist xislətlilərin itkin insanlarımızın taleyi ilə bağlı nə üçün məlumat verməkdən boyun qaçırdıqları da aydın olur.

## Hərbçilərimizlə yanaşı, çoxsaylı mülki vətəndaşlarımız da qətlə yetirilib

Erməni faşizminin qanlı izlərini özündə daşıyan növbəti cinayət faktı yaxın günlərdə Ağdam rayonunun işğaldan azad edilmiş Sarıcalı kəndi ərazisində aşkarlanıb. Ağdam-Hindarx yolunun kənarında tapılan kütləvi məzarlıqda dörd insanın qalığının olduğu ehtimal edilir. Skeletlərin aşkarlandığı əraziyə baxış zamanı yaxınlıqda hərbi yük avtomobilinin qalıqları da müəyyən edilib. Ehtimala görə, Birinci Qarabağ müharibəsi zamanı ermənilər 4 nəfəri həmin avtomobildə qətlə yetirib. Meyitləri isə quyuya ataraq basdırıblar.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından bildirilib ki, onlarda olan məlumata görə, Ağdam rayonunun işğaldan azad edilən Sarıcalı kəndinin ərazisində hərbçilərimizlə yanaşı, çoxsaylı mülki vətəndaşlarımız da ermənilər tərəfindən qətlə yetirilib.

Sözügedən ərazidə ANAMA tərəfindən təmizləmə işləri həyata keçirilib. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun mütəxəssisləri tərəfindən ilkin qazıntı işləri aparılıb.

## Erməni terrorunun izləri

Ermənistan tərəfindən həyata keçirilən çoxsaylı müharibə cinayətlərindən biri də 1993-cü il aprelin 18-də Kəlbəcərin Başlıbel kəndində törədilib. 24 aprel 2021-ci ildə Baş Prokurorluğun İstintaq idarəsinin müstəntiqləri tərəfindən məhkəmənin meyitlərin ekshumasiyası haqqında qərarına əsasən, Başlıbel kəndində müvafiq istintaq hərəkətləri keçirilərək 50 sm dərinlikdə torpağa basdırılmış kəskin çürüməyə məruz qalaraq skeletləşmiş 12 nəfərin meyitinin qalıqları aşkar edilib.



Ötən ilin fevral ayında Xocavənd rayonunun Edilli kəndi ərazisində Azərbaycan Ordusunun hərbi qulluqçularının olması ehtimal edilən şəxslərin kütləvi dəfn edildiyi məzarlıq aşkar edilib. İlkin məlumatlara görə, Edilli kəndindəki kütləvi məzarlıqda 15-20 nəfərin qalıqları var.

Keçən il martın sonlarında Azərbaycan Ordusunun hərbçiləri tərəfindən Xocalı rayonunun Fərrux kəndi ərazisindəki mövqelərdə qazıntı işləri apararkən ərazidə insan skeletləri aşkar edilib. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası faktla bağlı bildirib ki, Fərrux yüksəkliyi uğrunda Birinci Qarabağ müharibəsi zamanı ağır döyüşlərin getdiyini və Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildiyini nəzərə alaraq, tapılan meyit qalıqlarının şəhid olmuş Azərbaycan hərbçilərinə aid olduğu ehtimal edilir.

2022-ci ilin sentyabrında Edilli kəndində daha bir kütləvi məzarlıq aşkar edilib. Burada hərbçi olduğu ehtimal olunan 12 nəfərin məftil və kəndirlə bağlanmış, həmçinin işgəncə əlamətləri aşkarlanan qalıqları tapılıb.

Həmin il oktyabrın 17-də Xocavənd rayonunun Ərəkül kəndində də insan skeletinin hissələrinə bənzər sümüklər aşkarlanıb. Sümüklər həmin yerdən toplanaraq aidiyyəti üzrə ekspertizaya təqdim olunub.

Erməni vəhşiliyinin daha bir dəlili isə ötən il oktyabrın 27-də Kəlbəcər rayonunun Zallar kəndi ərazisində üzə çıxıb. Sözügedən kəndin ərazisində insan skeletinin hissələrinə məxsus olan erroziyaya uğramış sümüklər, eləcə də qadına məxsusluğu ehtimal edilən geyim əşyalarının fraqmentləri aşkar edilib. Aşkar edilmiş sümük və geyim əşyalarının Kəlbəcər rayonunun Ermənistan tərəfindən işğalı zamanı əsir düşərək işgəncə ilə öldürülmüş şəxsə məxsus olması ehtimal edilir.

## 400-ə yaxın vətəndaşımıza aid qalıqlar aşkar edilib

Bu ayın əvvəlində Şuşada da kütləvi məzarlıq aşkarlanıb. Şuşa həbsxanasının ərazisində tapılan kütləvi məzarlıq Birinci Qarabağ müharibəsi günlərində bu türmədə girov saxlanılan və o zaman 12 yaşı olan Cəmaləddin Süleyman oğlu Hüseynovun Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına verdiyi məlumata əsasən üzə çıxarılıb. İlkin olaraq 4 nəfərin meyitinin qalıqları aşkarlanıb.

Şuşa həbsxanasının ərazisində aşkarlanan kütləvi məzarlıq bu həbsxanada azərbaycanlıların qanunsuz saxlanıldığını, onlara ağır işgəncələr verildiyini və orada amansız zorakılıqlar törədildiyini bir daha göstərir.

Müvafiq qurumlar tərəfindən Şuşa rayonunun Daşaltı, Xocavənd rayonunun Edilli, Ağdam rayonunun Sırxavənd, Xocalı rayonunun Fərrux, Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndləri və digər ərazilərdə aparılmış axtarış tədbirləri nəticəsində aşkarlanan kütləvi məzarlıqlardan, eləcə də Şuşa həbsxanasının ərazisindən Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal olunan xeyli sayda insan meyitinin qalıqları ekshumasiya edilib.

Həmin meyit qalıqları ilə bağlı məhkəmə-tibbi kriminalistik və məhkəmə molekulyar-genetik ekspertizaları təyin edilərək icraya yönəldilib və digər zəruri hərəkətlər yerinə yetirilib.

Məlumat verək ki, Ağdamın Sarıcalı kəndi ərazisində tapılan məzarlıq Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərimizdə tapılan səkkizinci məzarlıqdır. Məlumatlara əsasən, üçtərəfli Bəyanat imzalandıqdan sonra aparılmış axtarış-qazıntı işləri zamanı 400-ə yaxın vətəndaşımıza aid meyit qalıqları aşkar edilib.

O da qandondurucu reallıqdır ki, beynəlxalq ictimaiyyət hələ də Hayastanın faktlarla sübut olunan hərbi cinayətlərinə göz yumur, itkin vətəndaşlarımızın aqibətinin müəyyən olunması istiqamətində Ermənistana heç bir təzyiq göstərmir.

Lakin vəhşi hayların xalqımıza qarşı törətdikləri faşizm əməlləri bizim qan yaddaşımızdır və ya tez, ya da gec mənfurları beynəlxalq ədalət məhkəməsi qarşısında bu murdar, insanlıqdan uzaq əməllərinə görə cavab verməyə məcbur edəcəyik.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan "yaşıl enerji" hədəfinə doğru inamla irəliləyir

### "Qaradağ" stansiyasının günəşdən aldığı elektrik enerjisini evimizə və məişətimizə bu il çatdıracağı gözlənilir

**"Qaradağ" ildə yarım milyard kilovatsaat elektrik enerjisi istehsal edəcək. Stansiya günəşdən aldığı bu enerji ilə 110 mindən çox evi işıqlandıracaq. Hər il atmosferə atılan tullantıların 200 min tondan çox azaldılmasına imkan yaradaraq, 110 milyon kubmet təbii qaza qənaət ediləcək.**



Söhbət Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ən böyük bərpaolunan enerji şirkətinin - "Masdar"ın Azərbaycanda tikdiyi 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyasından gedir. Təməli keçən il martın 15-də Prezident İlham Əliyevin və BƏƏ-nin energetika və infrastruktur naziri Suhail Al Mazroueinin iştirakı ilə qoyulub.

Məlum olduğu kimi, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizdə "yaşıl enerji" istehsalının genişləndirilməsi məsələsi də əhəmiyyətli yer alıb. Hədəf ümumi enerji istehsalı gücündə bərpaolunan enerjinin payını indiki 17,3 faizdən 2025-ci ildə 24, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır. Bu məqsədə doğru atılan inamlı və uğurlu addımlardan biri də məhz "Qaradağ"ın tikintisinin başa çatdırılıb istifadəyə verilməsi olacaq.

Bəs stansiyanın nə vaxt hazır olması gözlənilir? Hələ bir neçə ay əvvəl "Masdar" şirkətinin Azərbaycandakı ofisinin inkişaf və sərmayə üzrə meneceri Maryam Raşid Əl-Məzrui bildirmişdi ki, təmsilçisi olduğu kampaniya hazırda ölkəmizdə xarici investisiyalar hesabına maliyyələşdirilən ilk müstəqil günəş enerjisi layihəsi - "Qaradağ" stansiyası layihəsini inkişaf etdirir və bu mühüm obyektin 2023-cü ildə kommersiya fəaliyyətinə başlayacağı nəzərdə tutulur. O, həmçinin vurğulamışdı ki, "Masdar" birbaşa xarici investisiyaları təşviq etməkdə maraqlıdır və Azərbaycanın təmiz enerji, davamlı inkişaf və karbon emissiyalarının azaldılması sahəsində səylərini dəstəkləyir. Şirkət, ümumiyyətlə, BƏƏ-nin qlobal enerji sektorunda qabaqcıl rolunu təbliğ edir, iqtisadiyyatın və enerji sektorunun şaxələndirilməsi prosesinə dəstək verir, ən son dayanıqlı texnologiyaları nümayiş etdirir və davamlılıq məsələləri ilə bağlı məlumatlılığı artırır.

Bu il 31may-3 iyun tarixlərində Bakıda keçirilən 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgisində iştirak edərkən də Maryam Raşid Əl-Məzrui bu barədə geniş məlumat verib: "Biz artıq bir neçə ildir ki, Azərbaycanda fəaliyyət göstəririk. Azərbaycanda birinci layihəmiz hazırda inşa olunan 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyasıdır".

Şirkət təmsilçisi stansiyanın bu ilin sonuna istifadəyə verilməsinin planlaşdırıldığını bildirərək, həmçinin əlavə edib: "Paralel olaraq, Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə başqa layihələr də həyata keçiririk. Ötən il nazirliklə birlikdə anlaşma memorandumu imzaladıq. Memorandum Azərbaycanda bərpaolunan enerjinin tətbiqini dəstəkləmək, eyni zamanda dənizdə külək enerjisindən istifadə, bu enerji hesabına "yaşıl hidrogen" istehsalı, karbon tutulması, istifadəsi və saxlanması, həmçinin digər tədbirləri əhatə edən inteqrasiya olunmuş həllərə dair potensial əməkdaşlıq imkanlarını ehtiva edir. Biz həmçinin Azərbaycanın Energetika Nazirliyi ilə birlikdə Qarabağ regionunda və Naxçıvanda bir neçə layihə həyata keçirməyi də planlaşdırırıq. Bununla da Azərbaycanın enerji sektorunda mühüm rol oynamaq istəyirik".

Xatırladaq ki, 2006-cı ildə BƏƏ-də yaradılan "Masdar" şirkəti həmin vaxtdan bəri zəngin təcrübə toplayıb, dünyada günəş və külək enerjisinin inkişafına 30 milyard dollardan çox sərmayə yönəldərək onlarca layihənin iştirakçısı olub. "Masdar" daim təmiz texnologiya innovasiyalarını artırmağa, Yaxın Şərqdə, eləcə də dünyada bərpaolunan enerji sektorunun inkişafina mühüm töhfələr verməyə səy göstərir. Azərbaycan bu şirkətin çalışdığı 40-dan çox ölkədən biridir. Onun fəaliyyət göstərdiyi ölkələr sırasında BƏƏ ilə yanaşı, Səudiyyə Ərəbistanı, İordaniya, Misir, Mərakeş, Böyük Britaniya, ABŞ, Avstraliya, Serbiya, Hindistan, İndoneziya, Özbəkistan və bir çox başqaları var.

Bizim Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında icra müqaviləsi 2020-ci il yanvarın 9-da imzalanmışdı. Müqaviləyə uyğun olaraq, "Masdar" tərəfindən 230 MVt gücündə günəş stansiyasının tikintisi ilə bağlı pilot layihənin icra edilməsi nəzərdə tutulmuşdu. Bu istiqamətdə 2021-ci il aprelin 6-da Energetika Nazirliyi və "Azərenerji" ASC ilə "Masdar" şirkəti arasında həmin elektrik stansiyası layihəsi üzrə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanmışdı. Nəzərdə tutulan stansiyanın Ələt qəsəbəsindən 9 kilometr şimal-qərbdə yerləşən ərazidə tikintisi planlaşdırılmışdı.

Nəzərdə tutulan işlər uğurla icra edilir. Bu da Azərbaycanda "yaşıl enerji" sahəsinin inkişafı üçün yeni-yeni perspektivlər açır. Cari il yanvarın 15-də Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində Əbu-Dabi şəhərində SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "Masdar" arasında ölkəmizdə 2 QVt gücündə Dənizdə Külək və Hidrogen layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişinin, həmçinin 1 QVt gücündə Günəş Fotovoltaik və 1 QVt gücündə Quruda Külək Layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişinin imzalanması deyilənlərin daha bir təsdiqidir. Təsadüfi deyil ki, dövlətimizin başçısı Əbu-Dabi Dayanıqlılıq Həftəsinin açılış mərasimindəki çıxışında bu hadisənin önəmini vurğulamışdır. Prezident əsasən enerji məsələlərindən bəhs edərək bildirmişdir ki, biz bərpaolunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmirik. Enerji təhlükəsizliyimizi hələ bir neçə il əvvəl təmin etmişik: "Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Bərpaolunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu, onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik. Əlbəttə ki, nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq".

Sözsüz ki, bərpaolunan enerji layihələri həmçinin Azərbaycanın etibarlı tərəfdaş kimi nüfuzunu daha da artıracaq və ölkə iqtisadiyyatının daha da inkişafına xidmət edəcək. O cümlədən bu il açılışını gözlədiyimiz "Qaradağ" stansiyası həm ölkəmizin enerjiyə artan tələbatının ödənilməsinə dəstək verəcək, həm də ixrac imkanlarını genişləndirəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Türk İnvestisiya Fondunun investisiya layihələrinin prioritet istiqamətlərinə dair müzakirələr aparılıb

**İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Türk İnvestisiya Fondunun prezidenti Bağdad Amreyevlə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, tərəflər Türk İnvestisiya Fondunun fəaliyyət mexanizmi, fondun investisiya layihələrinin prioritet istiqamətləri, sərmayələrin stimullaşdırılması imkanları, bu yöndə atılacaq addımları müzakirə ediblər. Görüşdə həmçinin digər fondlar və beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq məsələlərindən danışılıb, onların təcrübəsindən, eləcə də Azərbaycanın bu sahədə mövcud təcrübəsindən yararlanmaq təklif edilib.

Qeyd edək ki, Türk İnvestisiya Fondunun yaradılması ilə bağlı saziş 2023-cü il martın 16-da Ankarada keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının fövqəladə Zirvə Görüşündə imzalanıb. Fond öz fəaliyyətini həyata keçirərkən regiondaxili ticarətin təşviqinə kömək etmək, xüsusilə mikro, kiçik və orta müəssisələrin layihələrini maliyyələşdirmək məqsədilə "yaşıl" iqtisadiyyata keçidin dəstəklənməsinə yönəlmiş layihələrə üstünlük verir.

## Bu il 64 uşaq övladlığa götürülüb, 68 uşaq öz ailəsinə reinteqrasiya edilib




**Bu ilin ötən dövründə 34-ü oğlan, 30-u qız olmaqla 64 uşaq övladlığa götürülüb. Prezident İlham Əliyevin fərmanı əsasında 2019-cu il noyabrın 1-dən övladlığagötürmə sahəsində idarəetmə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunub.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ötən dövrdə bu sahədə idarəetmə və xidmətlərin elektronlaşdırılması təmin edilib və övladlığagötürmə prosesi e-sistem üzərindən həyata keçirilir.

Övladlığa götürülən uşaqların ailələrdə fiziki-mənəvi inkişafının təmin olunmasına da nəzarət edilir. Bu məqsədlə uşaqlar 18 yaşına çatanadək övladlığagötürmənin ilk ilində hər rüb, növbəti illərdə ildə bir dəfə monitorinqlər aparılır.

Bu il həmçinin reinteqrasiya tədbirləri nəticəsində sosial xidmət müəssisələrindən 35-i oğlan, 33-ü qız olmaqla 68 uşaq öz bioloji ailələrinə qaytarılıb.

## 3 ayda 18 min yeni iş yeri

### Həmin iş yerlərinin 90 faizdən çoxu qeyri-dövlət sektorunda açılmışdır

**Dünyada əhalinin sayı sürətlə artır, bunun əksinə olaraq, yüksək texnologiyaların tətbiqi sayəsində iş yerləri azalır. Bu, daha çox inkişaf etmiş ölkələrdə ciddi sosial problem yaradır. Nəticədə ölkələr işsiz əhalinin sosial müdafiəsini təmin etmək üçün dövlət büdcəsindən külli miqdarda əlavə vəsait ayırmağa məcbur olurlar.**

Bir çox ölkə bu problemin həllini pensiya yaşının artırılmasında görür. Məsələn, son vaxtlar Fransada baş verən sosial iğtişaşlar bununla bağlıdır. Bir sözlə, reallıq odur ki, elm və texnikanın tərəqqisi dünyada iqtisadi inkişafı təmin etsə də, yeni sosial problem yaradır.

Azərbaycan da dünyanın sivil inkişaf yolunu tutan liberal iqtisadiyyata malik ölkələrdəndir. Eyni zamanda biz əhalisi artan dövlətlər sırasındayıq. Belə ölkələrdə isə əhalinin məşğulluğunun təmin edilməsi, yumşaq desək, asan məsələ deyil. Prezident İlham Əliyev çıxışları zamanı bu məsələyə bir neçə dəfə toxunaraq bildirmişdir ki, hökumət iqtisadi inkişaf layihələrini icra edərkən buna xüsusi diqqət yetirməlidir.

Hazırda dövlət başçısının göstərişi ilə bir çox sosial məşğulluq layihəsinin icra edilməsi də bununla bağlıdır. Bu cür layihələrdən biri Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən əhalinin müxtəlif kateqoriyalarından olan vətəndaşların məşğulluğunun təmini məqsədilə kiçik biznes sahələrinin yaradılmasıdır. Bu proqram ölkənin yerli imkanlarına və xammalına uyğun icra edilir. Dövlət həmçinin əhalinin bu yolla məşğulluğunu artırmaq üçün büdcədən vəsait ayırır. Yəni öz kiçik biznesini qurmaq istəyən vətəndaşlara ilkin maliyyə dəstəyi göstərilir. Artıq minlərlə insan dövlətin bu imkanından yararlanaraq öz bizneslərini qurmuş, ailələrinin güzəranını təmin etmişdir.

Bu, problemin həllində bir yoldur. Amma məşğulluğun təmin edilməsinin fundamental yolu iqtisadiyyatın inkişafı və şaxələndirilməsidir. Odur ki, bunun üçün ölkəmizdə davamlı iqtisadi islahatlar aparılır. Həmin iqtisadi islahatlar isə yeni biznes sahələrinin yaranmasına geniş imkanlar açır.

Dövlət Statistika Komitəsinin (DSK) verdiyi məlumata görə, bu və digər tədbirlər hesabına cari ilin birinci rübü ərzində ölkədə 17,9 min yeni iş yeri açılmışdır. Həmin iş yerlərinin açılmasında qeyri-dövlət sektoru önəmli yer tutur. Belə ki, hesabat dövründə yeni iş yerlərinin 90,2 faizi həmin sektorda açılmışdır. Yeni açılan iş yerlərinin 81,9 faizi Bakının, 0,8 faizi Naxçıvan Muxtar Respublikasının, 17,3 faizi digər regionların payına düşmüşdür. Regionlarda açılan yeni iş yerlərinə görə Abşeron-Xızı iqtisadi rayonu öndə gedir.



Təzə açılmış iş yerlərinin 9,2 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 90 faizi mövcud müəssisə və təşkilatlarda, 0,4 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 0,4 faizi isə digər tədbirlər üzrə yaradılmışdır.

Hesabat dövründə hüquqi şəxslər tərəfindən yeni yaradılan müəssisələrin təsnifatı genişdir. Belə ki, həmin dövr hüquqi şəxslər tərəfindən tikinti, ticarət, nəqliyyat vasitələrinin təmiri, emal sənayesi, elmi və texniki fəaliyyət, turistlərin yerləşdirilməsi və ictimai iaşə, səhiyyə və sosial, nəqliyyat və anbar təsərrüfatı, inzibati və yardımçı xidmətlərin göstərilməsi sahəsində yeni müəssisələr açılmış, onlara yeni işçilər götürülmüşdür.

Cari il iyunun 1-i vəziyyətinə olan ilkin məlumatlara əsasən, iqtisadi fəal əhalinin sayı 5 milyon 213,1 min nəfər olmuşdur. Onlardan 4 milyon 920,6 min nəfəri məşğul əhalidir. Cari il mayın 1-i vəziyyətinə görə isə, muzdla çalışan işçilərin sayı 1 milyon 734,2 min, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 901,1 min, qeyri-dövlət sektorunda 833,1 min nəfər təşkil etmişdir. Həmin dövrdə iqtisadiyyatın neft-qaz sektorunda 31,8 min, qeyri-neft-qaz sektorunda 1 milyon 702,4 min nəfər çalışmışdır.

Yeni iş yerlərinin açılması təbii ki, ölkədə əhalinin gəlirlərinin və əməkhaqqının artmasını stimullaşdırır. İlkin məlumata görə, cari ilin yanvar-may aylarında ölkə əhalisinin nominal gəlirləri ötən ilin əvvəlki dövrü ilə müqayisədə 14,7 faiz artaraq hər nəfərə orta hesabla 2989,1 manat düşmüşdür.

DSK həmçinin açıqlayıb ki, cari ilin yanvar-aprel aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı keçən ilin müvafiq dövrünə nisbətən 10,8 faiz artaraq 913,9 manata çatmışdır. Həmin dövr ən yüksək əməkhaqqını neft-qaz sektorunda çalışanlar alıblar - orta hesabla 3714,9 manat. Qeyri-neft-qaz sektorunda işləyənlərin orta aylıq maaşı 860 manat olmuşdur. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 861,7, özəl müəssisələrdə isə 972,1 manatdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Taxıl zəmilərinin 33 faizində biçin yekunlaşıb, 1 milyon tondan çox məhsul yığılıb



### 12 rayonda arpa biçini başa çatıb

**Bölgələrdə taxıl biçini davam edir. Artıq payızlıq əkin sahələrinin 33 faizində biçin başa çatıb. Bu günədək sahələrdən 728937 ton arpa, 366037 ton buğda yığılıb. Ölkə üzrə payızlıq arpa sahələrinin 60 faizində, buğda sahələrinin isə 16 faizində biçin başa çatıb. Hazırda orta məhsuldarlıq arpa üzrə 30.2 sentner, buğda üzrə isə 34.4 sentner təşkil edir.**

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, artıq payızlıq arpa əkini aparılmış 12 rayonda arpa biçini tam yekunlaşmaq üzrədir. Bu mövsüm İmişli rayonunda 18 min hektara yaxın sahədə taxıl əkilib. Bu günədək sahələrdən 11885 hektarında biçin başa çatıb. Sahələrdən 46 min tondan artıq məhsul yığılıb, taxıl üzrə orta məhsuldarlıq 38,8 sentner/ha təşkil edir. İmişli rayonunda arpa sahələrinin 95 faizində biçin prosesi yekunlaşıb.

Hazırda rayonun taxıl sahələrinə 24 kombayn cəlb olunub, bunlardan 11 kombayn "Aqroservis" ASC-nin yerli rayon bölməsinin balansında olan kombaynlardır. Biçinə həmçinin fiziki və hüquqi şəxslərə məxsus 13 özəl kombayn cəlb olunub.

Qeyd edək ki, hazırda respublikanın 61 rayonunda biçin gedir. Biçin prosesinə ümumilikdə 1447 kombayn cəlb edilib. Ölkə üzrə biçin aparılmış sahələrin 95223 hektarı "Aqroservis" ASC-nin kombaynları, qalan hissəsi isə özəl kombaynlar vasitəsilə biçilib. "Aqroservis" ASC-nin kombaynları dislokasiya planı üzrə ilkin mərhələdə 5 hektaradək olan kiçik sahələrdə biçin aparır. Sosial biçin prosesi növbəlilik prinsipi əsasında həyata keçirilir.

Bu il ölkə ərazisində 1 058 398,9 hektar taxıl sahəsi əkilib, bunun 40 faizi arpa, 60 faizi buğda sahəsidir.

# Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının fətvası

**Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Qazılar Şurası iyunun 22-də Qurban bayramı ilə bağlı fətva verib.**



QMİ-dən AZƏRTAC-a verilən məlumata görə, AMEA Şamaxı Astrofizika Rəsədxanasının 2023-cü il hesablamalarına əsasən Azərbaycan üfüqündə Hilalın görünməsinə uyğun olaraq builki Qurban bayramı Zilhiccə ayının 10-na - Miladi təqvimlə iyunun 28-nə təsadüf edəcək. Şəriətə uyğun olaraq Qurban kəsimi həmin tarixdən başlayaraq 3 gün davam edə bilər. İyun ayının 28-də məscidlərimizdə Bayram namazı qılınacaq.

"Qurban bayramı Ülul-əzəm peyğəmbərimiz Həzrət İbrahimin (ə) əhdi və oğlu Həzrət İsmayılın (ə) dəyanəti ilə bəşər tarixində iz qoyan bir gündür. Bu müqəddəs bayram müsəlmanlar arasında ünsiyyəti, həmrəyliyi, yardımlaşmanı, qardaşlıq və dostluğu möhkəmləndirir. Tarix boyu müsəlmanlar "...Rəbbin üçün namaz qıl və qurban kəs!" ("Kövsər", 2) ilahi əmrinə riayət edərək Qurban bayramını qeyd edirlər. Vəhdət əqidəsi altında insanları birləşdirən Qurban ibadətinin mahiyyəti barəsində Qurani-Kərimdə belə buyurulur: "Onların (kəsilən qurbanların) nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz (bununla Allahın razılığına nail ola bilməzsiniz). Allaha çatacaq olan yalnız sizin təqvanızdır (Allahın rizasını səmimi qəlbdən etdiyiniz ibadətlə və yaxşı əməllərlə əldə edə bilərsiniz)" ("əl-Həcc", 37).

Qurban bayramına dair hökmlərə və şəriət qaydalarına əsasən, qurban kəsmək Məkkədə həcc ziyarətini icra edən zəvvarlara vacib buyurulub. Digər yerlərdə isə maddi imkanı olan adamların qurban kəsməsi bəyənilən əməldir və Həzrət Peyğəmbərin (s) mübarək hədisinə əsasən "Adəm oğlu üçün Qurban bayramı günündə Allah yolunda qurbanlıq kəsməkdən daha gözəl bir əməl ola bilməz". Adətən qurbanlıq üçün qoyuna üstünlük verilir. Lakin keçi, iribuynuzlu heyvan və dəvəni də qurbanlıq niyyəti ilə kəsmək olar. Qurbankəsmə ayininin təmizlik və sanitariya qaydalarına uyğun şəraitdə, müvafiq icra qurumları tərəfindən təyin olunmuş yerlərdə kəsilməsi məqsədəuyğundur. Şəriət qaydalarına görə, qurban kəsilən heyvan sağlam və kəsimə yararlı olmalı, xəstə və qüsurlu olmamalıdır. Qurbanlıq üçün müəyyən yaş həddinə çatmış heyvanlar kəsilir. Keçi və qoyunun yaşı bir ilə yaxın, öküz və inək iki ildən artıq, dəvənin isə beş ili tamam olmalıdır. Keçi və qoyunu bir nəfər, iribuynuzlu heyvanı isə bir neçə nəfər cəmləşərək kəsə bilər. Borc alıb qurban kəsmək şəriətə uyğun deyildir. Heyvanın üzü qibləyə yönəldilərək Qurban niyyəti ilə sahibi və ya kəsəni tərəfindən Allahın adı çəkilərək kəsilməsi vacibdir, həmçinin qurbanlıq azyaşlı uşaqların və digər heyvanların gözü qarşısında kəsilməməlidir. Qurban ətinin satılması və ya sahibinə gəlir gətirən işlərin görülməsi haramdır. Qurbanlıq əsasən üç hissəyə bölünür: bir hissəni qurban sahibinin özünə götürməsi, ikinci hissənin fəqir və imkansız ailələrə, üçüncü hissəsinin isə hədiyyə kimi qohum-əqrəbaya paylanması tövsiyə olunur. Qurban şükür, səmimiyyət, ixlas və mərhəmət bayramı olduğundan bu mübarək günlərdə valideynlərin və yaxınların ziyarət olunması, qocalara və yetimlərə qayğı göstərilməsi bəyənilən əməllərdəndir.

Əziz qardaş və bacılar! Hədislərdə qeyd olunduğu kimi, Qurban bayramının gecəsi və günü duaların Allah-taala tərəfindən qəbul olduğu zamandır. Bu niyyətlə bu il anadan olmasının 100 illiyini qeyd etdiyimiz, dövlətçiliyimizin qurucusu Ulu Öndər Heydər Əliyevi rəhmətlə yad edir, dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin, eləcə də ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın misilsiz fəaliyyətlərinə Azərbaycan dindarlarının xeyir-dualarını çatdırır, bu mübarək günlərdə onlara və ailələrinə ən böyük İlahi nemət olan cansağlığı diləyirik.

Qafqaz Müsəlmanları İdarəsi və Qazılar Şurası müqəddəs Qurban bayramı münasibətilə dünya müsəlmanlarını və Azərbaycan xalqını, zəfər sevincimizdə payı olan şanlı ordumuzun əsgər və zabitlərini təbrik edir, Allah, Vətən və Zəfər uğrunda canlarını qurban edən şəhidlərimizə rəhmət, qazilərimizə şəfa arzulayır. Allah-taala dövlətimizə qüdrət, xalqımıza əzəmət, süfrələrimizə bərəkət bəxş etsin! Dua və ibadətləriniz qəbul, Qurban bayramınız mübarək olsun!", - deyə QMİ-nin fətvasında bildirilib.

# ICESCO və Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq genişlənir

**Mədəniyyət naziri Adil Kərimlinin rəhbərlik etdiyi nümayəndə heyəti İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktorunun dəvəti ilə Mərakeş Krallığının Rabat şəhərində səfərdədir.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Adil Kərimlinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik arasında görüş keçirilib. Görüşdə Azərbaycanın Mərakeş Krallığındakı səfiri, Azərbaycanın ICESCO yanında daimi nümayəndəsi Nazim Səmədov da iştirak edib.

Faydalı əməkdaşlığa görə Azərbaycan tərəfinə təşəkkürünü bildirən ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik Azərbaycanla təşkilat arasında əməkdaşlığın uğurlu olmasında böyük və əvəzolunmaz dəstək göstərən Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin xidmətlərini yüksək qiymətləndirdiyini məmnunluqla ifadə edib.

Salim bin Məhəmməd əl-Malik bu əməkdaşlığın bir çox ölkələr üçün uğurlu model ola biləcəyini vurğulayıb, təşkilatın gələcək üçün nəzərdə tutulan əsas strateji istiqamətləri, hazırda həyata keçirilən təşəbbüslər, proqramlar və layihələr barədə məlumat verib. O, innovasiya, təhsil sistemlərinin inkişaf etdirilməsinin, həmçinin birgəyaşayış və sivil dialoq dəyərlərini möhkəmləndirməyin prioritet istiqamətlərdən biri olduğunu bildirib.

Mədəniyyət naziri Adil Kərimli ICESCO-nun Azərbaycanın təhsil, elm və mədəniyyət sahələrində strateji tərəfdaşı olduğunu, iki tərəf arasında əlaqələrin Prezident İlham Əliyev və birinci xanım, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva tərəfindən böyük dəstək aldığını qeyd edib. O, Mədəniyyətlərarası Dialoq Forumunda ICESCO-nun əsas tərəfdaş olduğunu qeyd edərək gələn ilin may ayına planlaşdırılan forum çərçivəsində də əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə ölkəmizlə təşkilat arasında müxtəlif sahələrdə əməkdaşlıq, o cümlədən Bakıda ICESCO-nun Regional Ofisinin açılması, Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi, ICESCO-nun tərəfdaş olduğu "Bakı Prosesi" çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi, ölkəmizin mədəniyyət nümunələrinin İslam Dünyası İrsi Siyahısına daxil edilməsi və digər məsələlər müzakirə olunub.

Görüşdən sonra Salim əl-Malik mədəniyyət naziri Adil Kərimlininin başçılıq etdiyi nümayəndə heyətini ICESCO-nun baş qərargahında yeni yaradılmış "Peyğəmbərin yolu" muzeyi ilə tanış edib.

Qeyd edək ki, bir neçə zaldan ibarət geniş və müasir muzeyin ekspozisiyasında Məhəmməd Peyğəmbərin həyatına, ailəsinə, həyat tərzinə, eləcə də Məkkə və Mədinə şəhərlərinə həsr olunmuş dəyərli eksponatlar, tarixi kitablar əyani və rəqəmsal formada sərgilənir.

# GDU-da yaz imtahan sessiyasına ictimai baxış keçirilib





**Əvvəlcə Gəncə Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, dosent Şahin Xurşudov və humanitar məsələlər üzrə prorektoru, dosent Gülsüm Fətəliyeva mediatur iştirakçılarına imtahan prosesinin təşkili və keçirilməsi qaydası ilə bağlı məlumat vermişlər.**

Bildirmişlər ki, mövcud qanunvericiliyin tələbləri nəzərə alınmaqla bütün texniki-təşkilat işləri yüksək səviyyədə həyata keçirilmişdir. İmtahan prosesinə kənar müdaxilənin yol verilməməsi və tələbələrin öz biliklərini sərbəst ifadə etdirmələri üçün bütün şərait yaradılmışdır.

Mediatur iştirakçıları imtahanların gedişini kamera vasitəsilə izləmək üçün yaradılan nəzarət otağına baxış keçirdikdən sonra auditoriyalarda imtahan prosesini izləmişlər. Sonda onlar imtahanın gedişi ilə bağlı fikirlərini bölüşmüşlər. Müşahidəçilər görülən işləri yüksək qiymətləndirərək universitetdə imtahanlara lazımi şəraitin yaradıldığını qeyd etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## VI Beynəlxalq Musiqi Festivalı

# Qaliblər açıqlanıb

**İyunun 22-də "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində keçirilən Beynəlxalq Muğam Müsabiqəsinin ikinci turuna keçən ifaçılar arasından seçilən qaliblərin ümumi nəticələri elan olunub.**





AZƏRTAC xəbər verir ki, Beynəlxalq Muğam Müsabiqəsi xanəndə və instrumental ifaçılıq kateqoriyaları üzrə keçirilib.

Münsiflərin yekdil rəyinə əsasən, müsabiqənin xanəndəlik kateqoriyasında Qran-Pri mükafatına Mohiçehra Şahmurotova (Özbəkistan) layiq görülüb. Birinci yeri Mirəli Sarızadə (Azərbaycan), ikinci yeri Daşqın Kürçaylı (Azərbaycan), üçüncü yeri isə Dostmurod Negmurodov (Özbəkistan) tutublar.

İnstrumental ifaçılıq kateqoriyasında isə Qran-Pri mükafatına Vaqif Təhməzov (Azərbaycan) layiq görülüb. Bu kateqoriyada 1-ci yerə Anar Vəlizadə (Azərbaycan), 2-ci yerə Shoxijohan Yoriev (Özbəkistan), 3-cü yerə isə Cahandar Mikayılov (Azərbaycan) sahib olublar.

Qaliblərə mükafatlar "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalının iyunun 25-də Heydər Əliyev Mərkəzində keçiriləcək yekun konsertində təqdim ediləcək.

Qeyd edək ki, Beynəlxalq Muğam Müsabiqəsinin xanəndə və instrumental ifaçılıq kateqoriyaları üzrə münsiflər heyətinin sədri, Milli Konservatoriyanın rektoru, Xalq artisti Siyavuş Kərimi, üzvləri isə Böyük Britaniyadan tanınmış musiqi nəşri olan "Songlines" jurnalının baş redaktoru Saymon Brotun (Simon Broughton), İraqdan musiqiçi, ud ifaçısı, UNESCO-nun Sülh Artisti Nasir Şamma (Naseer Shamma), Özbəkistandan "Soqdiana" Dövlət Ənənəvi Alətlər Kamera Orkestrinin yaradıcısı və dirijoru Firuzə Abdurahimova, Türkiyədən Beynəlxalq Ənənəvi Musiqi Şurasının Türkdilli Dünya Musiqisi üzrə tədqiqat qrupunun sədri Abdullah Akat olub.

Müsabiqənin münsiflər heyətinin sədri, Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi çıxış edərək Beynəlxalq Muğam Müsabiqəsinin əhəmiyyətindən danışıb. Bildirib ki, iyunun 18-dən davam edən müsabiqə istedadların özlərini daha geniş auditoriyaya təqdim etməsi istiqamətində bir təkan olub.

Müsabiqəyə Azərbaycanla yanaşı, İran, İsrail, Özbəkistan və Türkiyədən ümumilikdə 22 ifaçı, o cümlədən ifaçılıq kateqoriyası üzrə 12, xanəndəlik kateqoriyası üzrə isə 10 ifaçı qatılmışdı. Ölkəmizi instrumental ifaçılıq kateqoriyası üzrə 5, xanəndəlik kateqoriyası üzrə isə 4 ifaçı təmsil edib. Özbəkistan bu müsabiqədə çox fəal idi. Seçimlər ikinci tura vəsiqə qazanmış 10 iştirakçı arasında aparılıb.

Siyavuş Kərimi müsabiqənin təşkilində göstərdiyi dəstəyə görə, Heydər Əliyev Fonduna təşəkkür edib.

Münsiflər heyətinin digər üzvləri də çıxış edərək müsabiqə barədə öz təəssüratlarını bölüşüblər.

Qeyd edək ki, "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı və müsabiqə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə keçirilir.

# Cadenza Orkestri konsert proqramı ilə çıxış edib

**"Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalının 4-cü günündə Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində fəaliyyət göstərən Cadenza Orkestri (Cadenza Contemporary Orchestra) çıxış edib.**









Konsertdən əvvəl AZƏRTAC-a müsahibə verən Cadenza Orkestrinin bədii rəhbəri, bəstəkar Türkər Qasımzadə bugünkü konsertin Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində baş tutduğunu qeyd edib: "Bugünkü tədbirin fokusu - Azərbaycan bəstəkarlarının əsərlərində muğam fenomenidir. Bu səbəbdən konsertin Muğam festivalı ilə xüsusi bağlılığı var. Tədbirin daha bir özəlliyi ondan ibarətdir ki, gecədə çağdaş musiqiyə üstünlük verilib. Konsertdə Aydın Əzimovun, Cavanşir Quliyevin, Tahir İbişovun, Elmin Mirzəyevin, Firudin Allahverdiyevin əsərləri səslənəcək. Gecədə milli alətlərimizlə birgə Qərbi Avropa alətlərində də ifalar olacaq".

Kollektivin bədii rəhbəri Muğam Mərkəzinin foyesində "Abşeron illüziyaları" adlı instalyasiya təqdim edildiyini söyləyib. "Bu instalyasiya bir bəstəkarın, müəllifin təxəyyülüdür: xəyalımızdakı Abşeron necə olmalıdır və ya necə ola bilərdi? Bunu dinləyicilərimizə səs instalyasiyası şəklində təqdim etdik", - deyə T.Qasımzadə əlavə edib.

Gecə çağdaş Azərbaycan və dünya musiqisinin sintezi üzərində qurulub. Konsertdə Azərbaycan Respublikasının Əməkdar artisti Əyyub Quliyevin dirijorluğu ilə Azərbaycan bəstəkarlarının əsərləri səslənib.

Cadenza Orkestri iki istiqamət üzrə fəaliyyət göstərir: musiqi maarifçiliyi və məşhur beynəlxalq musiqi festivalları və mərkəzləri ilə yaradıcılıq əlaqələrinin yaradılması və bununla da Azərbaycan musiqisinin təbliği.

Daş Salnamə Muzeyində isə "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində özbək milli klassik musiqi ənənəsini davam etdirən müğənni və musiqiçi İlyos Arabov və Tacik dövlət ansamblının solisti, 5-ci Beynəlxalq Muğam Festivalında solo ifa nominasiyası üzrə laureat Sardor Soliyev çıxış ediblər.

Daha bir konsert Azərbaycan Milli Konservatoriyasında təqdim edilib. Səhnəyə İordaniyanın tanınmış vokalçısı Macadi Nahhas və caz pianoçusu Tural Rafael çıxıblar.

Xatırladaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2009-cu ildən milli muğam müsabiqələri və beynəlxalq muğam festivalları təşkil olunur. Bu layihələr milli sərvətimiz olan muğamı dünya mədəniyyəti kontekstində bir daha nümayiş etdirmək və yaşatmaq məqsədi daşıyır.





# Mədəniyyət





**● Ədəbiyyat xadimlərimiz**

**"Günəşdən gənclik istədim" adlı şeirində**

**Dağdan əzəmət istədim,**
**İnsanlardan məhəbbət.**
**Nə istədim, nə istədim -**
**Verdi mənə təbiət.**

**deyərək xoşbəxtliyindən söz açırdı Nigar Rəfibəyli. O, istedadlı şairə idi. Tanınırdı, sevilirdi. Bunların hamısından öncə isə xoşbəxt qadın, sevimli ana, əziz nənə idi. Ancaq o günlərə ağır sınaqlardan keçib gəlmişdi.**



# Dağlardan əzəmət, insanlardan məhəbbət istəyən şairə

### Rəfibəylilər nəslinin övladı

Nigar xanım nüfuzlu Rəfibəylilər nəslindən idi. 1913-cü il iyunun 23-də Gəncədə dünyaya gələn Nigar Rəfibəylinin babası Ələkbər bəy Rəfibəyli tanınmış maarifçi, «Difai» partiyası Gəncə təşkilatının rəhbərlərindən biri idi. Atası Xudadat bəy Rəfibəyli isə Azərbaycanın ilk ali təhsilli cərrahlarından olmuşdu. Xarkov Tibb Universitetində təhsil almış, 1907-ci ildə təcrübəli həkim kimi Gəncəyə dönmüşdü. Gəncədə həkimlərin sayı az idi. Belə bir vaxtda həkim Xudadat bəy çoxlarının ümidi, pənahı oldu. Ona müraciət edənlərə diqqətlə yanaşır, əlindən gələn köməyi əsirgəmir, yoxsullara pulsuz tibbi yardım göstərirdi. Ancaq o, yalnız savadlı həkim kimi tanınmırdı. Xudadat bəy həm də atası Ələkbər bəy kimi xalqının azadlığı yolunda mübarizə aparan siyasi və ictimai xadim idi.

Nigar Xudadat bəylə Cəvahir xanımın üç övladının sonbeşiyi idi. Amma ona əvvəlcə bu dünyadan nakam köçmüş bibisi Suğra xanımın adını vermişdilər. Dörd-beş il keçmiş. ancaq heç kim onu adı ilə çağırmağa ürək etməmişdi. Türkiyə şairəsi Nigar xanımın "Əfsus" adlı şeirlər kitabını oxuyan Cəvahir xanım bir gün qayınatasına dedi: "Bu qızın adını çağırmağa heç birimiz ürək eləmirik. Əgər izn versən, adını dəyişib, Nigar qoyardıq". Ələkbər bəyin xeyir-duası ilə Suğra adı Nigarla əvəzləndi.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurulması xəbəri onların da ailəsində böyük sevinclə qarşılandı. Rəfibəylilərin qabaqcıl nümayəndələri Cümhuriyyət hökumətinin fəaliyyətində misilsiz xidmətlər göstərdilər. Xudadat bəy Rəfibəyli Azərbaycan Xalq Cümhuriyyətinin səhiyyə və sosial təminat naziri, daha sonra səhiyyə naziri oldu. Bir il sonra isə o, Gəncə quberniyasının general-qubernatoru vəzifəsinə təyin edildi. Xudadat bəy Rəfibəyli 1920-ci ildə - Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra vəzifəsindən istefa verdi. Həmin il mayın 12-də isə həbs edildi. Xalqının ləyaqətli, vətənsevər övladı olan Xudadat bəyə qarşı bir neçə maddə üzrə saxta ittiham irəli sürüldü. Mühakiməsi, ağır cəza alması üçün ermənilər böyük canfəşanlıq göstərdilər və məqsədlərinə çatdılar. 42 yaşlı Xudadat bəy məhkəmənin hökmü ilə güllələnəndə oğlanları Kamilin 11, Rəşidin 9, qızı Nigarın 7 yaşı vardı.

Xudadat bəydən sonra ailəsi çox əziyyət çəkdi. Övladları ata yurdundan pərən-pərən oldular. Kamil bəyin Türkiyəyə, Rəşid bəyin Rusiyaya oxumağa getmələri onların həyatını xilas etdi. Rəşid bəy sonralar Bakıya köçsə də, Kamil bəy həyatının sonunadək İstanbulda yaşadı.

Çox illər sonra maestro Niyazi Nigar xanıma şad xəbəri gətirdi: "Qohumlarınızla görüşdük", - dedi. Nigar xanım həsrətlə, kədərlə keçən uzun illərdən sonra qardaşı və ailəsi ilə görüşə bildi.

### "Ayrılıqdan betər dünyada nə var..."

Nigar xanım Bakıya 1927-ci ildə gəldi. Kinostudiyada tərcüməçi işlədi. 1930-cu ildə Maarif Evində Rəsul Rzanı gördü. Sonra müxtəlif ədəbiyyat məclislərində qarşılaşdılar. 1932-ci ildə Nigar Rəfibəyli Moskvaya Ədəbiyyat İnstitutuna təhsil almağa getdi. Rəsul Rza da təhsilini tamamlamaq üçün həmin şəhərə yollandı. 1937-ci ildə Bakıya qayıtdılar. Ailə qurdular.

Böyük Vətən müharibəsi illərində Rəsul Rza cəbhəyə yola düşdü. Nigar Rəfibəyli Azərbaycan Yazıçılar İttifaqının sədri Səməd Vurğunun yanına gedib dedi: "Mən də cəbhəyə getmək istəyirəm". Səməd Vurğun zarafatla cavab verdi: "Ay Nigar, mən indi bir batalyonu hardan tapım ki, səni cəbhədə müşayiət eləsin?"

Rəsul Rzanın cəbhədən qayıtması ilə Nigar xanımın ayrılıq əzablarına son qoyuldu. Sonralar qısamüddətli səfərlər onları ayıranda belə bir-biriləri üçün çox darıxırdılar. Bu həsrət bəzən səmimi şeirlərə çevrilirdi. Nigar Rəfibəylinin "Neyləyim" şeiri də belə yarandı:

*Çiçəklərin çəkir gözü intizar,*
*Ayrılıqdan betər dünyada nə var*
*Yaz axşamı səni bil ki, bu Nigar,*
*Həzin-həzin yada salır, neyləyim.*

Bəstəkar Emin Sabitoğlu sonralar bu şeirə musiqi bəstələdi. Ancaq bu gözəl mahnının yaranma tarixçəsi qüssəli oldu.

1981-ci ilin əvvəllərində Rəsul Rza yüksək qan təzyiqi diaqnozu ilə xəstəxanaya yerləşdirildi. İllərin yorğunluğu, dərd-səri Nigar xanımın da sağlamlığını əlindən almışdı. "Leçkomissiya"da ona ağır diaqnoz qoydular. Xərçəng xəstəliyi artıq irəliləmişdi. Həkimlər müalicə üçün Moskvaya aparmağı məsləhət gördülər. Xəbəri eşidən Rəsul Rza Nigar xanımı Moskvaya yola salmaq üçün yığışmağa başladı və... bu dəfə onun yüksələn təzyiqini endirməyə həkimlərin gücü yetmədi.

Həyat yoldaşının vəfat etdiyini ağır xəstəliklə çarpışan Nigar xanıma demədilər. Nigar xanım təəccüblənirdi ki, Rəsul kimi hövsələsiz adam ona zəng vurmur. Deyirdilər, təzyiqi olduğuna görə həkimlər telefonu palatasından çıxarıblar.

Emin Sabitoğlu "Neyləyim" mahnısını da həmin günlərdə bəstələdi. Mahnı Nigar xanımın çox xoşuna gəldi.

Həkimlər amansız xəstəliyin qarşısında aciz idilər. Nigar xanım son günlərini Rəsul Rzasız qalmış evində keçirməyə gəldi. Evdə yasa aid heç nə qalmasa da, sanki həyat yoldaşının yoxluğunu hiss etdi. Qızlarından qara paltarını istədi. Gətirdilər. Qara paltarını geyindi. Bir həftə sonra, iyulun 9-da o, əbədi olaraq vəfalı həyat yoldaşının yanına - haqq dünyasına köçdü.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

**● Sənət dünyası**

# Heydər Əliyevin bədii obrazı teatr səhnəsində

**Ulu Öndər həmişə teatr sənətinə xüsusi məhəbbətlə yanaşmış, ömrünün sonuna kimi teatr sevgisinə sadiq qaldığını bu sahəyə göstərdiyi diqqət və qayğısı ilə sübut etmişdir. Ümummilli Lider tez-tez sənət ocaqlarına baş çəkir, teatrların maddi-texniki bazasının gücləndirilməsi, sənətkarların sosial vəziyyətlərinin yaxşılaşdırılması, fəxri adlarla təltif olunmaları üçün tədbirlər görürdü.**




Bu gün Heydər Əliyev mövzusuna və onun obrazının səhnə təcəssümünə sənətkarlar tərəfindən böyük əhəmiyyət verilir. Səhnə xadimləri 2003-cü ildən başlayaraq, Azərbaycan teatrlarında görkəmli dövlət xadiminin həyat və siyasi fəaliyyətinin fenomenal cəhətlərini əks etdirən pyeslərin tamaşaya qoyulmasına xüsusi diqqət yetirirlər. C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının rəhbərliyi 2003-cü ildə Əbülfəz Bərəkətin "Tufanda yanan çıraq" (rejissor B.Osmanov) əsərinə səhnə həyatı verməklə ilk dəfə bu missiyanı öz üzərinə götürmüşdür. 2004-cü ildə isə Aqşin Babayevin "Xilaskar" əsərini səhnəyə gətirən (rejissor F.Məhərrəmov) Sumqayıt Dövlət Dram Teatrı bu sıraya qoşulmuşdur. Ardınca - 2008-ci ildə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" (rejissor K.Quliyev) əsəri ərsəyə gətirilmişdir. Yenə də C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı bu ənənəni davam etdirərək bir-birinin ardınca İftixarın "Qurtuluş dastanı" (rejissor O.Qurbanov-2013), "İşıqlı, nurlu sabah" (mənzum pyes, rejissor İ.Piriyev), "Qurtuluş" (rejissor İ.Piriyev), "Nurlu ömrün anları" (mənzum pyes, rejissor İ.Piriyev), Hidayətin "Burdan min atlı keçdi" (rejissor F.Məhərrəmov) əsərlərinə səhnə həyatı vermişdir.

Ümumiyyətlə, repertuarı ilə həmişə vətənpərvərlik ruhu aşılayan İrəvan Dövlət Azərbaycan Dram Teatrı milli məfkurəni, dövlətçilik ideyalarını təbliğ edən əsərlərə daha çox üstünlük verir. Teatrın A.Babayevin "Xilaskar" (rejissor O.Qurbanov) sənədli-publisistik səhnə əsərinə müraciəti də belə məqsəddən irəli gələn mövqe idi.

Heydər Əliyev fenomeni İrəvan teatrının kollektivi üçün sönməz ilham qaynağı və həyat eşqi, qüdrət mənbəyidir. Ulu Öndərin bədii obrazını dolğun təcəssüm etdirən səhnə əsərləri arasında görkəmli ədib Hidayətin "Burdan min atlı keçdi" pyesinin tamaşası da xüsusi yer tutur. Tamaşaçı sevgisi ilə əhatə olunan bu əsər teatr sənətimizin nailiyyəti kimi qiymətləndirilir.

İrəvan teatrı "Heydər Əliyev İli" münasibətilə Ulu Öndərin milli məfkurəmizə verdiyi sağlam ideologiyanın böyük uğurlarının təbliğini "Ulu Öndər Heydər Əliyev irsini öyrənirik" layihəsi çərçivəsində "Qurtuluş" və "Heydər Əliyev zirvəsi" devizi altında "Nurlu ömrün anları" tamaşasının nümayişi ilə həyata keçirir.

***Nərminə AĞAYEVA,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***

**● Unudulmazlar**

# Azərbaycan teatr və kinosunun korifey sənətkarı

**Həyatının 50 ilini Azərbaycan teatr sənətinə həsr edən Möhsün Sənani səhnəmizin görkəmli və məşhur artistlərindən biridir. Onun adı gələndə hər kəsin üzündə sevinc duyulur, təbəssüm görünür. Aktyorun repertuarı zəngin və mürəkkəbdir. M.Sənanini xalqa sevdirən onun bənzərsiz sənətkarlığı, fitri istedadı, gənc nəslə daim qayğı ilə yanaşması olub. M.Sənani aktyora çox vacib olan hər cür qabiliyyətə - oxumaq, oynamaq, çalmaq bacarığına malik idi. "Sənani" onun təxəllüsüdür. Əsl soyadı Cəfərovdur.**



Azərbaycan teatr və kinosunun korifey sənətkarı, Xalq artisti Möhsün Sənaninin anadan olmasından 123 il ötür.

Möhsün Sənani Cəfərov 1900-cü ildə Tiflisin "Şeytanbazar" məhəlləsində ruhani ailəsində anadan olub. O, 4-5 yaşında ikən ata-anasını itirib, nənəsinin himayəsində qalıb.

Səhnə həvəsi Sənanidə yeniyetmə yaşlarından baş qaldırıb. O, yerli teatrların və Tiflisə qastrola gələn artistlərin tamaşalarına böyük həvəslə baxırdı. Möhsün həm teatr aktyorlarının oyununa, həm də meydanlarda oxuyan dərvişlərin səsinə fikir verir və onları təqlid edirdi. Bu minvalla özünün oxumaq qabiliyyətini inkişaf etdirirdi. 1911-ci ildə Möhsün birinci dəfə geniş izdiham qarşısına çıxır. Böyük həyəcan keçirsə də, onun çıxışı dinləyicilərə, tamaşaçılara dərin təsir bağışlayır.

1915-ci ildə M.Sənani, Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, Mirzəxan Quliyev, Mustafa Mərdanov və b. Tiflis truppasına cəlb edilirlər. Həmin ildə Hüseyn Ərəblinskinin iştirakı ilə hazırlanmış "Kaveyi-Ahəngər" tamaşasında Möhsünə dəmirçi Kavənin oğlunun rolunu tapşırırlar. O, bu rolu çox böyük ustalıqla ifa edir.

Gənc olmasına baxmayaraq, az bir zaman içərisində ona Heydər bəy ("Hacı Qara"), Süleyman bəy, Vəli ("Arşın mal alan"), Hambal ("Məşədi İbad"), Rzaqulu ("Nadir Şah"), Kasio ("Otello") kimi məsul rollar tapşırılıb. Həmin rollar Sənaninin aktyorluğunda bir sıçrayış yaradır, ona həqiqi aktyor şöhrəti qazandırır. M.Sənani 1915-ci ildən 1920-ci ilə kimi Tiflis teatr truppasında çalışır, 1921-ci ildən Bakının teatr səhnələrində parlamağa başlayır. O, nəinki teatrda, eləcə də kino sənətində də çox yaddaqalan, təkrarolunmaz rollar ifa edib. Bunlardan "Səbuhi", "O olmasın, bu olsun", "Sehirli xalat" və s. filmləri qeyd etmək kifayətdir.

Əlli il ərzində bir gün də olsun səhnədən ayrılmayan Möhsün Sənani qədirbilən xalqımızın sevilən və məşhur sənətkarıdır. Onun zəngin səhnə təcrübəsini, yaradıcılıq xüsusiyyətlərini öyrənmək bizim gənc aktyor və kino sənətkarlarımız üçün maraqlı olduğu qədər də səmərəlidir.

**● Mənəvi sərvətimiz**

# Ana dilimiz - dövlət dilimiz

**Ana dilimiz tarixin çox çətin yollarından, dolanbaclarından keçib. Ağır sınaqlarla üzləşib. Mənsub olduğu xalqın özü kimi başı bəlalar çəkib. Azərbaycan zaman-zaman yadellilərin hücumlarına məruz qalıb, işğal edilib.**




O ağır vaxtlarda qarət edilən, talanan, azadlığı əlindən alınan yalnız bu məmləkət və onun əhalisi olmayıb. Bu xalqın ən böyük mənəvi sərvəti olan ana dili də ayrı-ayrı əsrlərdə Azərbaycanı istila edən, əsarətdə saxlayan ərəblərin, farsların və rusların müdaxilələrinə məruz qalıb. Öz milli-mənəvi dəyərlərini qorumaq naminə mücadilələr edən xalqımız tarix boyu ana dilinə məhəbbətlə yanaşıb, onu qorumağa çalışıb. Buna görə əzab-əziyyətlərə sinə gərib, məşəqqətlər çəkib. Ancaq Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərini, eləcə də doğma dilini qorumağa, gələcək nəsillərə çatdırmağa müvəffəq olub.

Dünyanın "Orxon-Yenisey", "Güntəkin" kimi qədim yazılı abidələrinin, şifahi xalq ədəbiyyatı nümunələrinin, Mahmud Kaşğarinin "Divanül-lüğətül-türk" kitabının, "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm söz sənətinin, eləcə də sonrakı dövrlərdə yaşamış şairlərimizin, yazıçılarımızın əsərlərini yaratdıqları bu zəngin, şirin dil bütün çətinliklərə, yaradılan problemlərə rəğmən bu gün yaşayır, həm də müstəqil Azərbaycanın rəsmi dövlət dili kimi. Sevinclə, qürurla, fəxrlə qeyd etdiyimiz bu faktın arxasında xalqımızın əsrlər boyu davam edən böyük mücadilələri, mübarizələri dayanır.

## Cümhuriyyət hökumətinin qəbul etdiyi ilk qərarlardan biri

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk qurulan demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaşaya bildiyi 23 ay ərzində ana dilimizin qorunmasında, inkişafında, zənginləşməsində, dövlət dili statusu qazanmasında misilsiz işlər gördü. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilinə dövlət dili statusu verildi. Bu, Cümhuriyyət hökumətinin Gəncəyə köçdükdən sonra qəbul etdiyi ilk qərarlardan biri idi.

Hökumət ölkədə birdən-birə Azərbaycan dilinə keçidin yaradacağı problemləri də nəzərə almışdı. Odur ki, qərarda qeyd olunmuşdu: "Dövləti lisan türk dili qəbul edilərək, içəridə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istemalına da müsaidə edilsin". Qərardan aydın olurdu ki, hökumət müəssisələrində rus dilinin də işlənməsinə müvəqqəti olaraq icazə verilir. Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri Behbud xan Cavanşir "Azərbaycan" qəzetinə verdiyi müsahibədə bununla bağlı demişdir: "Azərbaycan müəssisələrində rus dilinin işlədilməsi hazırkı dövrün zərurətindən irəli gəlir. Əlbəttə, bu, çox davam etməyəcəkdir. Yüksək vəzifədə işləyən və türk dilini bilməyən məmurlar uzun müddət işləyə bilməyəcəklər. İki ildən sonra Azərbaycanın bütün müəssisələri milliləşdiriləcəkdir. Türk dilini bilməyən məmurlar isə vəzifələrini itirməməkdən ötrü bizim dili öyrənməli olacaqlar".

Həmin dövrdə savadlı, bacarıqlı və təcrübəli işçiləri itirməmək, həmçinin kütləvi savadsızlığı aradan qaldırmaq, dövlət dilinin öyrənilməsi və inkişaf etdirilməsi vacib idi. Bu məqsədlə gərəkli tədbirlərin həyata keçirilməsinə başlanıldı.

Eyni zamanda Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qarşıya qoyduğu ən mühüm məsələlərdən biri də milli kadrların yetişdirilməsi idi. Azərbaycan dilini mükəmməl bilən savadlı milli kadrların hazırlanması üçün ölkədə təhsilin tamamilə yenidən qurulmasına qərar verildi. Dil və təhsil sahəsində ilk mühüm tədbirlərdən biri məktəblərin milliləşdirilməsi oldu. Belə ki, 1918-ci il avqustun 28-də ölkədəki təhsil müəssisələrinin milliləşdirilməsi haqqında qərar qəbul edildi. Qərarda bildirilirdi ki, bütün ibtidai məktəblərdə təhsil şagirdlərin öz ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dili icbari surətdə həyata keçirilməlidir. Azərbaycan dilini bilməyən şagirdlər üçün üçüncü və dördüncü siniflərdə xüsusi şöbələr açıldı. İki ildən sonra şagirdlərin ana dilində təhsillərini davam etdirə bilmələri üçün həmin şöbələrdə Azərbaycan dili intensiv şəkildə tədris olunurdu. Beşinci sinifdən sonra şagirdlər məktəbi qurtarana qədər tədris rus dilində aparılırdı. Ancaq Azərbaycan dilinin tədrisi həmin siniflərdə həftədə 4 saatdan az olmayaraq məcburi fənn kimi keçirilirdi.

1919-cu ilin əvvəllərində artıq ölkədə dövlət hesabına 637 ibtidai və 23 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi. Orta məktəblərin arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina qız tədris müəssisəsi, politexnik və kommersiya məktəbləri var idi. 1919-cu ilin əvvəllərində Bakı qadın müəllimlər seminariyası kişi müəllimlər seminariyasına çevrildi. Həmin ilin iyulunda Lənkəran kişi və qadın gimnaziyaları Xalq Maarif Nazirliyinin tabeliyinə verildi.

Cümhuriyyət hökumətinin həyata keçirdiyi işlər bütün ölkədə müsbət nəticələrini verdi. Bölgələrdə, idarə və təşkilatlarda savadsızlığı ləğvetmə kursları işə başladı. Azərbaycan dilinin öyrənilməsi üçün 1919-cu ilin sentyabrından kurslar təşkil olundu. Bu məqsədlə hökumət tərəfindən 351 min manat vəsait ayrıldı. Bunlardan əlavə, Azərbaycan dilində fəaliyyət göstərən ali təhsil müəssisələrinin yaradılmasına və Azərbaycan əlifbasının islahatı üçün ilk addımların atılmasına başlanıldı.

## 70 il sonra çiçək açan arzular

Tədqiqatçılar qeyd edirlər ki, dövlət idarələrində müəyyən müddət ərzində rus dilinin də işlənməsinə icazə verilməsi Azərbaycan Xalq Cümhriyyəti parlamentinə aid deyildi. Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi, dillərin işlənməsi məsələsi isə qanunverici hakimiyyətin, parlament üzvlərinin öhdəsinə buraxılmışdı. Tədqiqatçılar diqqətə çatdırırlar ki, yerli olmayan parlament nümayəndələri çıxışların rus dilində olmasını təklif etdikdə parlamentin iclaslarından birində bu məsələ ayrıca müzakirə edilərək qərar qəbul olundu. Qərarla parlamentin rəsmi dili Azərbaycan türkcəsi elan olundu, digər millətlərin nümayəndələrinin rus dilində çıxış etmələri məqbul hesab edildi. Lakin rəsmi sənədlərin hamısı dövlət dilində tərtib olunmalı idi. Odur ki, parlamentin sədr müavini Həsən bəy Ağayev dövlət dilində olmayan sənədlərin üstündə bir qayda olaraq belə dərkənar qoyurdu: "Ərizə türkcə lisanda olmadığı üçün əncamsız qalır".

Ümumiyyətlə, o dövr parlamentdə mütəmadi olaraq Azərbaycan dilinə münasibət bildirilir, yeni kursların, məktəb, seminariya və institutların açılmasına xüsusi diqqət göstərilirdi. Parlamentin 21 avqust tarixli iclasında çıxış edən deputatlar Bakı Dövlət Universitetinin yaradılması ilə bağlı çıxışlarında dil məsələsini xüsusi vurğuladılar. Onların əksəriyyəti ölkənin açılacaq ilk ali məktəbində tədrisin ana dilində aparılmasının vacibliyini bildirdilər. Həmin iclasda Azərbaycan dilinin dövlət dili kimi inkişafı, tədrisi, təhsildə yeri barədə ciddi mülahizələr irəli sürüldü.

1918-ci il dekabrın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun 34 saylı əmri ilə Azərbaycan dili orduda da dövlət dili kimi qəbul olundu. Orduda xidmət edən, ancaq dövlət dilini bilməyən zabitlər qarşısında hərbi nazir tələb qoydu ki, bir ay müddətində heç olmasa komanda sözlərinin azərbaycanca qarşılıqlarını öyrənsinlər və əsgərlərə Azərbaycan dilində komanda versinlər. Bir ay ərzində tələbi yerinə yetirə bilməyən zabitlər ordudan dərhal xaric edilməli idilər.

Orduda Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi məqsədilə müvafiq kurslar açıldı. Kursların aparılması təcrübəli mütəxəssislərə həvalə olundu. 1919-cu il fevralın 11-də Cümhuriyyət hökuməti Azərbaycan Milli Ordusunda türk dilində süvari qoşunların nizamnaməsinin təsdiqi haqqında qərar qəbul etdi.

Bolşevik işğalı nəticəsində ömrü qısa olan Azərbaycan Xalq Cümhuriyyətinin başladığı böyük işlər 70 il yarımçıq qaldı. Lakin XX əsrin son onilliyində Azərbaycanın yenidən müstəqilliyinə qovuşması ilə Cümhuriyyət qurucularının bütün, o cümlədən ana dilimizlə bağlı arzuları çiçək açdı.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# III Avropa Oyunları

## İLK "QIZIL"IMIZ



**Azərbaycan Polşada keçirilən III Avropa Oyunlarında ilk medalı rəsmiləşdirib. 67 kq-da çıxış edən karateçi Tural Ağalarzadə B qrupundakı ikinci görüşündə də qələbə qazanaraq yarımfinala yüksəlib və ən azı bürünc medalı təmin edib. O, əvvəlcə macarıstanlı Martial Tadissiyə 4:0, ardınca isə isveçrəli Toni Pisinoya 5:3 hesabı ilə qalib gəlib.**

Tural finala gedən yolda polşalı Miloş Sabyetskini sınağa çəkib. Rəqibinə 4:3 hesabı ilə qalib gələn idmançımız həlledici mərhələdə yunanıstanlı Dionisios Ksenos ilə üz-üzə gəlib. Görüşü qalib başa vuran idmançımız III Avropa Oyunlarının qızıl medalına sahib çıxıb.

60 kq-da yarışan Əminağa Quliyev A qrupundakı sonuncu görüşündə polşalı Arkadiuş Kvasnyevskiyə 1:0 hesabı ilə qalib gəlsə də, yarımfinala adlaya bilməyib.

Azərbaycanın iki qadın karateçisi isə III Avropa Oyunlarında mübarizəni dayandırıb. 55 kq çəki dərəcəsində çıxış edən Mədinə Sadıqova B qrupundakı üç qarşılaşmanın ikisində məğlub olub. İvet Qoranova (Bolqarıstan) və Cennifer Varninqə (Lüksemburq) uduzan idmançı Mariya Kernerə (Polşa) qalib gəlsə də, yarımfinala yüksələ bilməyib.

50 kq-dakı Fidan Teymurova A qrupunda Şara Vinnidin Hubrixi (Almaniya) üstələsə də, Serab Özçelik (Türkiyə) və Erminiya Perfetto (İtaliya) ilə bacarmayıb.

Xatırladaq ki, iyulun 2-dək davam edəcək III Avropa Oyunlarında 48 ölkədən 7 minə yaxın idmançı mübarizə aparır. İdmançılar 29 növ üzrə 253 dəst medalın sahibini müəyyənləşdirirlər. Azərbaycan Krakov-2023-də 14 növ üzrə 101 idmançı ilə təmsil olunur.

Qeyd edək ki, Polşanın Krakov şəhərində III Avropa Oyunlarının təntənəli açılış mərasimi iyunun 21-də keçirilib. Açılış mərasimində idmançıların paradı olub. Paradda bayrağımızı qılıncoynadan Barat Quliyev və oxatan Yaylagül Ramazanova daşıyıblar. Paraddan 6-cı keçən Azərbaycan idmançıları Polşanın 5 müxtəlif şəhərində mübarizə aparırlar. Bu səbəbdən rəsmi keçidə yalnız Krakovdakı yarışlarda iştirak edən idmançılar qatılıblar.

## Millimizin heyəti açıqlandı

**Polşanın Krakov şəhərində təşkil olunan Avropa Oyunlarında iştirak edən çimərlik futbolu üzrə Azərbaycan millisinin heyəti açıqlanıb. Siyahıda iki qapıçı və 10 oyunçu yer alıb.**



**Qapıçılar:** Elçin Qasımov, Vaqif Şirinbəyov; **Oyunçular:** Comərd Baxşəliyev, Elşad Manafov, Orxan Məmmədov, Fuad Hüseynov, İsa Zeynallı, Sabir Allahquliyev, Ramil Əliyev, Kamran Qürbətov, Amid Nəzərov, Hüseyn Axundov.

Qeyd edək ki, Azərbaycan yığması ilk matçını iyunun 27-də meydan sahiblərinə qarşı keçirəcək. Komanda bir gün sonra Portuqaliya, iyunun 29-da isə İspaniya ilə üz-üzə gələcək.

## Atletlərimiz çıxışlarını başa vurdular

**Azərbaycan atletləri Polşada keçirilən III Avropa Oyunlarında çıxışlarını başa vurublar. Son gündə 6 idmançı fərdi çıxış edib. Anna Yusupova 1500 metr məsafəyə qaçışda 6-cı yeri tutub. İsmayıl Əliyev nüvə itələmədə (15.84 m) ən yaxşı 7-ci, Fəxriyə Tağızadə isə uzunluğa tullanmada (5,14 m) 9-cu nəticəni göstərib.**



İlahə Quliyeva qadınlar, Aleksey Əliəkbərov kişilər arasında 200 metr məsafəyə qaçışda qüvvəsini sınayıb. Hər iki idmançı 10-cu olub. Elman Abışov isə 5000 m məsafəni qaçmaqda 14 iştirakçı arasında cəmi 2 nəfəri qabaqlaya bilib.

Cavid Məmmədov, Lamiyə Vəliyeva, Əli Abdıyev və İlahə Quliyevadan ibarət Azərbaycan yığması isə 4x400 metr məsafəyə qarışıq estafetdə 7-ci yerlə kifayətlənib.

## Ruslan Lunyov finala yüksələ bilmədi



**Azərbaycan atıcısı Ruslan Lunyov Polşada keçirilən III Avropa Oyunlarındakı ilk çıxışında 11-ci yeri tutub. İkiqat Avropa çempionu 10 metr məsafəyə pnevmatik tapançadan atəş açma yarışında final mərhələsinə vəsiqə qazana bilməyib. 577 xal toplayan 34 yaşlı idmançı ilk "8-lik"dən kənarda qalıb.**

**R.Lunyov iyunun 29-30-da isə 25 metr məsafəyə atəş açmada qüvvəsini sınayacaq.**

## "Krakov-2023"ün ilk qızılı



**III Avropa Oyunlarının ilk qızıl medalının sahibi müəyyənləşib. Yarışın ikinci günündə sinxron üzgüçülükdə qaliblər bəlli olub.**

Qarışıq komanda yarışında İtaliya yığması çempion adını qazanıb. Corcio Minisini və Lukreziya Ruggiero 242,3599 xal toplayıb. İspaniya təmsilçiləri Emma Qarsiya və Dennis-Boneu Qonzales 216,5867 xalla ikinci olub. Beatris Lennon Krass və Ranjuo Çarls Tomblinin yer aldığı Böyük Britaniya millisi 203,4916 xalla ilk üçlüyü tamamlayıblar.


## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankında İnformasiya təhlükəsizliyinin qiymətləndirilməsi üzrə müdaxilə sınağının keçirilməsinə dair xidmətin satın alınması ilə bağlı elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 17 may 2023-cü il tarixli qərarına əsasən "PROSOL" QSC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## Miqrant faciələri davam edir

### İspaniya sahillərində onlarla qaçqın itkin düşüb

**Aralıq dənizində son illərin ən böyük faciəsindən sonra Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) və BMT-nin Qaçqınlar üzrə Agentliyi (UNHCR) növbəti insidentlərin qarşısını almaq üçün təcili və qətiyyətli tədbirlər görməyə çağırıb.**



Xatırladaq ki, iyunun 14-də Yunanıstan sahillərində miqrantları daşıyan balıqçı gəmisi qəzaya uğramışdır. Bundan 3 gün əvvəl gəmi Liviyanın Tobruk şəhərindən yola düşmüş və onun təyinat ünvanı İtaliya olmalı idi. Lakin iyunun 14-nə keçən gecə gəmi Yunanıstanın Pilos şəhəri yaxınlığında beynəlxalq sularda batmışdır. Gəmidə olanların əksəriyyəti Misir, Suriya və Pakistandan idi.

Qəzadan sonra sahil mühafizəsi və Hərbi Dəniz Qüvvələri, Rusiya Hərbi Dəniz Donanmasının "Admiral Qorşkov" freqatı və "Pıjma" quru yük gəmisi, eləcə də hərbi və şəxsi gəmilərin iştirakı ilə genişmiqyaslı xilasetmə əməliyyatına başlanıldı. Gəmidəki sərnişinlərin sayının 400-750 nəfər olduğu, onlardan 104-nün xilas edildiyi bildirilir. Ölənlərin sayı 82 nəfərdir, itkin düşənlərin dəqiq sayı isə məlum deyil. Təxminən 30 nəfər Pilosda xəstəxanaya yerləşdirilib. Faciə ilə əlaqədar Yunanıstan hökuməti üçgünlük matəm elan etmişdir. Bu hadisə Yunanıstanda ilin əvvəlindən bəri ən böyük gəmi qəzası, son illər Avropada ən ölümcül qəzalardan biri kimi qiymətləndirilir.

Dünən isə İspaniya sahilləri yaxınlığında daha bir faciə baş verib. Kanar adaları sahillərinə qayıqla getmək istəyərkən azı bir azyaşlı ölüb, onlarla miqrant itkin düşüb. Bu barədə krallığın dəniz xilasetmə xidmətindən məlumat verilib.

Bildirildiyinə görə, xilasetmə əməliyyatını Mərakeş koordinasiya edib, lakin sonra İspaniyadan kömək istənilib. Nəticədə 24 nəfər xilas edilib. Gəmidə neçə nəfərin olduğu dəqiq bilinmir.

Amma "Caminando Fronteras" təşkilatının sözçüsü Elena Maleno bildirib ki, hadisə zamanı 39 nəfər həlak olub.

İspaniya Daxili İşlər Nazirliyinin məlumatına görə, 2023-cü ilin yanvar-may aylarında Kanar adalarına 4,4 mindən çox qeyri-leqal miqrant gəlib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 47 faiz azdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**



**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5784**
**Sifariş 1551**

**Qiyməti 40 qəpik**